27 avqust 2021 №64 (1841) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Qarabağı azad etməklə tariximizdəki qara səhifəni qapatdıq

### "İşğal edilmiş torpaqları azad etmişik. Bu torpaqlarda indi möhkəmlənirik"

Son illər ərzində şəhid ailələri və Qarabağ müharibəsi əlilləri ilə mənim çoxsaylı görüşlərim olub. Müharibədən əvvəl hər dəfə görüş əsnasında mən deyirdim ki, biz nəyin bahasına olursa-olsun öz torpağımızı qaytaracağıq, Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, şəhidlərimizin qisasını alacağıq və belə də oldu. Müharibədən keçən aylar ərzində şəhid ailələri, Qarabağ qaziləri ilə görüşlərdə tam başqa abhava hökm sürür. Əgər əvvəlki illərdə biz hər zaman şəhidlərimizin xatirəsini yad edərək özümüzə söz verirdik ki, onların qisasını alacağıq, bu gün qürur hissi ilə deyə bilərik ki, şəhidlərimizin qanını yerdə qoymadıq, ədaləti bərpa etdik, düşməni torpağımızdan qovduq və müzəffər xalq kimi dünya tarixinə öz adımızı yazdırdıq.



Prezident İlham Əliyev bu sözləri avqustun 26-da Abşeron rayonunda şəhid ailələrinə, müharibə əlillərinə və Vətən müharibəsi qəhrəmanlarına mənzillərin və avtomobillərin təqdim olunması mərasimində deyib.

Mərasimdə birinci xanım Mehriban Əliyeva da iştirak edib.

Dövlət başçısı bildirib ki, Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin xatirəsini əbədiləşdirmək, daim qəlbimizdə saxlamaq üçün böyük işlər görülür və görülməlidir. Şəhid ailələrini, Qarabağ qazilərini evlərlə təmin etmək bizim siyasətimizin əsas istiqamətlərindən biri idi, bu gün də bu, belədir. "Ancaq bununla paralel olaraq, İkinci Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün biz daha fəal olmalıyıq. Eyni zamanda, gənclərimizin tərbiyə işində də mütləq bu mövzu ön planda olmalıdır. Çünki İkinci Qarabağ müharibəsindəki, Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir", – deyə İlham Əliyev vurğulayıb.

Prezident diqqətə çatdırıb ki, indiyədək şəhid ailələri və müharibə əlilləri olan insanlar 10 minə yaxın mənzillər, fərdi evlərlə təmin edilib. Təkcə keçən il 1572 mənzil verilib, bu il 3 minə yaxın mənzil veriləcək və beləliklə, növbədə duran vətəndaşların problemi öz həllini tapacaq. Bu kateqoriyadan insanlara ümumilikdə 7200 avtomaşın təqdim edilib. Qeyd olunub ki, açılışı keçirilən kompleksdə mindən çox ailə yaşayacaq. Kompleksdə bütün şərait yaradılıb, 1500 nəfərlik məktəb, uşaq bağçası inşa edilib. Prezident bildirib ki, 2020-ci ilin İkinci Qarabağ müharibəsi zamanı öz əmlakını itirmiş insanlar üçün də minlərlə yeni ev tikilir. Çünki mənfur düşmən döyüş meydanında məğlubiyyətə uğrayarkən bunun əvəzini mülki vətəndaşlardan çıxmaq istəyirdi. Bizim bir çox şəhərlərimiz daim atəş altında idi. Yüzdən çox mülki şəxs, onların arasında qadınlar, uşaqlar bu namərd atəş nəticəsində həlak olub və minlərlə insan öz əmlakını itirib.

"Təbii ki, bütün bunlar böyük vəsait tələb edir və bütün bu işləri Azərbaycan öz vəsaiti hesabına edir, heç kimə möhtac deyil, heç kimdən yardım istəmir, öz hesabına edir və edəcək. O cümlədən, azad edilmiş torpaqlarda bu gün bütün bərpa işləri Azərbaycanın vəsaiti hesabına icra olunur. Biz Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək üçün xüsusi proqram qəbul etdik. Bu proqram bir neçə ili əhatə edir və birinci il – 2021-ci il üçün proqram icra olunur. Bu gün o bölgələrdə gedən quruculuq-abadlıq işləri göz önündədir. Bir çoxları üçün bu, çox gözlənilməz oldu və bəziləri təəccüb edirlər ki, biz bu işləri belə yüksək templərlə görürük. Əlbəttə, burada təkcə maliyyə vəsaiti kifayət etməz. Gərək bu genişmiqyaslı layihələri icra etmək üçün texniki imkanlar olsun, kadr potensialı olsun, daxili resurslar olsun. Biz bütün bu gücləri səfərbər etmişik və bu gün erməni vəhşiliyinin fəsadlarını aradan qaldırırıq. Mən demişdim, biz Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Biz bunu edəcəyik. Necə ki, bu günə qədər verilən bütün vədlər həyatda öz əksini tapdı, bir dənə də olsun vəd yerinə yetirilməmiş qalmadı və İkinci Qarabağ müharibəsindəki parlaq Qələbəmiz buna əyani sübutdur", – deyə Prezident İlham Əliyev əlavə edib.

davamı səh. 2-də

## Paytaxtımıza, təbiətə, insanlara sevgi ilə

### Bakıda 43 hektar ərazini əhatə edən möhtəşəm "Gənclik" parkı salınıb



Avqustun 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonu ərazisində yeni yaradılan "Gənclik" parkının açılışında iştirak ediblər.

Prezidentin köməkçisi Anar Ələkbərov burada yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Bir zamanlar baxımsız ərazi olan bu yerin indi həmin görkəmindən əsər-əlamət qalmayıb. Paytaxtın Xətai rayonunda yerləşən ərazi yenidən qurularaq Azərbaycanın meşə tipli füsunkar parklarından birinə çevrilib.

Hələ 2019-cu il noyabrın 11-də bu park yeni salınarkən Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak edən dövlətimizin başçısı parkın abadlaşdırılması, təbii mənzərəsinin qorunub saxlanılması, burada əyləncə və idmanla məşğul olmaq üçün şəraitlə yanaşı, iaşə obyektlərinin qurulması, insanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə zəruri infrastrukturun yaradılmasına dair tapşırıqlar vermişdi. Üzərindən qısa zaman keçməsinə baxmayaraq, tapşırıqlar tam şəkildə icra olunub və nəticədə yeni istirahət mərkəzi paytaxtın ən gözəl məkanlarından birinə çevrilib.

davamı səh. 2-də

## VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası oktyabrda keçiriləcək

Xəbər verdiyimiz kimi, paytaxtımız növbəti kitab bayramına – artıq ənənə halını almış sərgi-yarmarkaya ev sahibliyi edəcək. VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası oktyabrın 6-dan 10-dək Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçiriləcək.

Builki sərgi-yarmarka dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunacaq. Kitab bayramında kitab təqdimatları, yazarlarla görüşlər, işgüzar toplantılar və söz ustadının həyat və yaradıcılığına dair müxtəlif tədbirlər təşkil ediləcək.

səh. 3

## "Burada işğal dövründə törədilmiş vandalizmin izlərini görürük"

Latın Amerikası ölkələrinin aparıcı media qurumlarının təmsilçiləri ölkəmizə səfər çərçivəsində avqustun 26-da Füzuli və Cəbrayıl rayonlarında olublar.



Əcnəbi jurnalistlər Füzulidə Minatəmizləmə Agentliyinin nümayəndələri ilə görüşüb, minalanmış sahələrin təmizlənməsi prosesini izləyiblər. Onlara Füzuli-Cəbrayıl yolunda minatəmizləmə işləri barədə məlumat verilib.

Bildirilib ki, Ermənistan tərəfi həm otuz il davam edən işğal dövründə, həm də 2020-ci ildə 44 günlük müharibə vaxtı Azərbaycan torpaqlarına yüz minlərlə mina basdırıb. Hazırda azad olunmuş ərazilərdə minatəmizləmə əməliyyatları bütün gücü ilə davam edir. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100-dən çox insan yaralanıb.

Otuzillik işğaldan sonra bu torpaqlar öz sahiblərinə qayıtdı. Biz burada işğal dövründə törədilmiş vandalizmin izlərini görürük – dini, mədəni, tarixi abidələr, yaşayış yerləri yerlə yeksan olunub. Bu, çox ağır mənzərədir.

Bu sözləri Füzuli şəhərinə səfər zamanı Perunun "Prensa 21" xəbər portalının direktoru Karlos Linares söyləyib.

O bildirib ki, bu cür vəhşi əməllər insanı heyrətləndirir: "Burada ərazilərin kütləvi minalanması faktı ilə də qarşılaşdıq. Bu yerlər ona görə minalanıb ki, Azərbaycan öz torpaqlarını azad etdikdən sonra burada aparılacaq bərpa işləri ləngisin və insanlar arasında daha çox ölüm halı olsun. Məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması ləngisin".

Daha sonra Cəbrayıla gələn əcnəbi jurnalistlər ermənilər tərəfindən dağıdılan şəhərin qalıqları ilə tanış olublar. Bildirilib ki, işğaldan öncə Cəbrayıl tarixi abidələrin, dini məbədlərin zəngin olduğu məkan kimi, eləcə də səfalı təbiəti ilə tanınırdı. Lakin işğaldan sonra həmin Cəbrayıldan əsər-əlamət qalmayıb, ermənilər buradan müdafiə xarakterli ərazi kimi istifadə edib.

Qəbir daşları sındırılmış, qəbirlər qazılaraq cəsədlər çıxarılmış qəbiristanlıqlardan birində olan jurnalistlər bu vandalizmdən heyrətə gəliblər. Media nümayəndələri bunun insanlıqla bir araya sığmadığını vurğulayıblar.

Qonaqları səfər boyu Xarici İşlər Nazirliyinin əməkdaşı Emin Ələsgərov müşayiət edib.

Latın Amerikası ölkələri KİV nümayəndələrinin Şuşa və Gəncəyə də səfərləri nəzərdə tutulub.

mövzunun davamı səh. 3-də

## Ermənistan XİN-in "yaddaş pozğunluğu"

"Ermənistan Xarici İşlər Nazirliyi hələ də "yaddaş pozğunluğu" sindromundan əziyyət çəkir. Belə olan halda biz qarşı tərəfə bir daha xatırladırıq ki, 30 ilə yaxın müddət ərzində Azərbaycana qarşı təcavüz siyasəti həyata keçirərək, onun beynəlxalq tanınmış ərazilərinin bir hissəsini hərbi işğal altında saxlayan Ermənistan bu torpaqlardakı tarixi, mədəni və dini irsin dağıdılması, mənimsənilməsi, mədəni sərvətlərimizin ölkəmizdən qeyri-qanuni çıxarılması kimi hərbi cinayətlərə görə məsuliyyət daşıyır".

Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bu sözləri UNESCO missiyasının həyata keçirilməsi ilə bağlı Ermənistan XİN-in şərhinə münasibət bildirərkən deyib.

XİN-in Mətbuat xidməti idarəsinin rəisi bildirib ki, bu cinayətlərin araşdırılması üçün Azərbaycan tərəfindən vaxtilə UNESCO-ya bölgəyə səfər edilməsi ilə bağlı çoxsaylı müraciətlər edilib və məhz Ermənistan beynəlxalq missiyaların Azərbaycanın o zaman işğal altında olan ərazilərinə səfər etməsinə əngəl olub.

davamı səh. 2-də



## Antalya dəb həftəsində "Böyük Qayıdış" kolleksiyası

Türkiyənin Antalya şəhərində keçirilən dəb həftəsində – "Antalya Fashion Week Digital 2021"də Azərbaycanın tarixi Zəfərinə və Qarabağın azad edilməsinə həsr olunmuş "Böyük Qayıdış" (The Great Return) adlı kolleksiya təqdim edilib.

Kolleksiya özündə bir sıra anlamlı mesajlar daşıyır. Vətən müharibəsində Zəfər 2020-ci ilin 11-ci ayında – noyabrda qazanıldığı üçün kolleksiya 11 geyimdən ibarət olub. Kolleksiyanın təqdimatı isə 8 rəqəminin istifadəsi ilə Şuşanın azad edildiyi günü, əbədilik və Zəfər bayramımızı özündə əks etdirir.

Yeni kolleksiyanın digər özəlliyi isə "Xarıbülbül" rəsmlərinin və aksesuarlarının da yer aldığı libaslardan ibarət olmasıdır. Əl ilə işlənmiş saç sancaqları azərbaycanlı usta Nigar Nəsibli tərəfindən xüsusi olaraq bu kolleksiya üçün hazırlanıb.

## Sənət ölməzdir prinsipini aşılayan sənətkar

Bədii təsvir vasitələrinin vəhdəti olan kinoda sənətkarı istedadla yanaşı xarici görünüşü, şəxsiyyət üstünlüyü, xarakterik davranışı da seyrçiyə sevdirir. Səhnə yaraşıqlı görünüşünə görə seçilən, alicənab xüsusiyyətinə görə sevilən respublikanın Əməkdar artisti İsmayıl Əfəndiyev də Azərbaycan peşəkar aktyor nəslinin belə unudulmaz nümayəndələrindəndir.

səh. 7

### "YARAT"da açılan "XX əsrin son çiçəkləri..."



səh. 3

### "Nizami Gəncəvi İli" münasibətilə "Sözün sehri" adlı regional televiziya müsabiqəsi keçirilir

səh. 4



### Türk tarixinin böyük zəfəri

səh. 8

№64 (1841)
27 avqust 2021
www.medeniyyet.az

# Qarabağı azad etməklə tariximizdəki qara səhifəni qapatdıq

“Hər kəs xəritəyə baxıb görə bilər ki, Azərbaycan hakim strateji nöqtələrə sahibdir, istər Qarabağ bölgəsində, istər Azərbaycan-Ermənistan sərhədində”

*əvvəli səh. 1-də*

### İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq

Dövlət başçısı vurğulayıb ki, müharibə dövründə Azərbaycan hərbçiləri həm peşəkarlıq, həm rəşadət, cəsarət, qəhrəmanlıq, eyni zamanda, fədakarlıq göstərmişlər, sözün əsl mənasında, ölümə gedirdilər. Şəhidlərimizin əziz xatirəsi hər birimiz üçün müqəddəsdir. Biz əməliyyatları planlaşdıranda, ilk növbədə, mümkün olan itkilər haqqında düşünürdük və müqayisə apardıqda Azərbaycan məhz buna görə az itki verib. Hər bir şəhidin həlak olması onun yaxınları, qohumları üçün faciədir, böyük bir dərddir.

“Ancaq, eyni zamanda, onu da bildirmək istəyirəm ki, şəhidlərin sayı daha çox ola bilərdi. Əgər biz əməliyyatları planlaşdıranda bu amili nəzərə almasaydıq. Ona görə Ermənistan ordusu ilə müqayisədə bizdə itkilər kifayət qədər azdır. Düzdür, Ermənistan öz itkilərini gizlədir. Ancaq bizdə olan dəqiq məlumata görə ən azı 7-8 min itki vermişdir. Təkcə azad edilmiş torpaqlarda bu günə qədər davam edən axtarış əməliyyatları nəticəsində 1600-dən çox erməni işğalçının cəsədi tapılmışdır. Burada da Azərbaycan humanistlik göstərir. Birinci Qarabağ müharibəsindən sonra bizim təxminən 4 minə yaxın itkin düşmüş insanımız olmuşdur. Ermənilər onların nəşini bizə qaytarmadılar. Ancaq biz yenə də humanizmin ən ülvi əlamətlərini, prinsiplərini rəhbər tutaraq bu işi də görürük. Biz bütün əməliyyatları planlaşdıranda əməliyyatların gedişatını izləyirdik, canlı rejimdə izləyirdik. Biz bilirik ki, düşmən ən azı 7-8 min itki verib. Azərbaycan isə 3 minədək şəhid verib. Nəzərə alsaq ki, biz əks-hücum əməliyyatı keçirirdik. Nəzərə alsaq ki, 5-6 müdafiə xətti var, böyük mühəndis istehkamları var idi, təbii relyef bizim üçün əlverişsiz idi. Anlamaq olar ki, biz insanların sağlamlığını, həyatda qalmasını nə qədər düşünürdük və buna nail olduq”, – deyə İlham Əliyev bildirib.

Prezident qeyd edib ki, İkinci Qarabağ müharibəsi tarixdə əbədi qalacaq: “Azərbaycan xalqının çoxəsrlik tarixində buna oxşar parlaq və tam Qələbə olmamışdır. Biz 300-dən çox şəhəri, kəndi, qəsəbəni döyüş meydanında işğalçılardan azad etdik. İşğalçıları məcbur etdik ki, onlar kapitulyasiya aktını imzalayaraq digər rayonlardan öz xoşları ilə çıxsınlar”.





Dövlət başçısı bildirib ki, müharibədən sonra bütün dünya erməni vəhşiliyinin yırtıcı sifətini gördü: “Çünki müharibəyə qədər işğal dövründə Ermənistan tərəfi o vaxt işğal edilmiş torpaqlara heç kimi buraxmırdı. Eyni zamanda, bu məsələ ilə məşğul olan vasitəçilər də oraya getməyə o qədər can atmırdılar. Halbuki qanunsuz məskunlaşma hərbi cinayət sayılır. Əgər 1990-cı illərin əvvəllərində Ermənistan bu qanunsuz məskunlaşmanı gizlin şəkildə edirdisə, son vaxtlar o qədər azğınlaşmışdılar ki, bunu açıq şəkildə edirdilər. İndi yada salmaq lazımdır, müharibədən əvvəl onların televiziyalarında hansı reportajlar gedirdi. Xaricdən – Suriyadan, Livandan gəlmiş ermənilər Şuşa şəhərində müsahibələr verirdilər. Deyirdilər ki, bəli, biz gəlmişik buraya. Bura Ermənistan torpağıdır. Biz burada yaşayırıq. Bunları təbliğ edirdi, hərbi cinayəti təbliğ edirdi. Onlara bizdən başqa söz deyən yox idi. Minsk qrupu onlara bir söz demirdi. Qanunsuz məskunlaşma tək Şuşada getmirdi, Cəbrayılda da gedirdi, Zəngilanda da gedirdi, Kəlbəcərdə də, Laçında da. Təkcə Ağdam və Füzulidə məskunlaşma getmirdi. Çünki orda heç nə yox idi, hər şeyi dağıdıblar, bütün şəhər və kəndlərimizi yerlə yeksan ediblər”.

Prezident qeyd edib ki, ermənilər işğal olunmuş ərazilərdə 60-dan çox məscidi dağıdıblar: “Ermənilər bizim məscidlərimizdə inək, donuz saxlayıblar. Bu, bütün müsəlman aləminə təhqirdir. Bir daha sizin qarşınızda bütün müsəlman ölkələrinin rəhbərlərinə üz tutaraq deyirəm, bunu heç vaxt unutmayın, buna göz yummayın, görməzliyə vurmayın. Ermənistan rəhbərliyi bütün müsəlman aləmini təhqir edib. Qəbirləri dağıdan da, qəbir daşlarının üzünü silərək satan da ermənidir, ölülərin qızıl dişlərini çıxardan da ermənidir,



məscidlərimizi sökən də ermənidir, evlərimizi kərpic-kərpic söküb öz daxmasına daşıyan da ermənidir. Bunu hər kəs görür və görməlidir. Biz azad edilmiş torpaqlara xarici qonaqları, jurnalistləri, siyasətçiləri, ictimai xadimləri müntəzəm olaraq gətiririk ki, görsünlər və bilsinlər, biz təkcə öz ərazimizi işğaldan azad etməmişik, biz bölgəni erməni faşizmindən azad etmişik”.

### Bəzilərinin heç yuxusuna gəlməyən işləri görürük

Dövlət başçısı daha sonra deyib: “Bu gün biz bu əraziləri bərpa edərək tarixi ədaləti bərpa edirik. Əfsuslar olsun ki, xalqımız uzun illərdir ədalətsizliklərlə üzləşir. XX əsrin 20-ci illərində xalqımıza iki böyük zərbə vuruldu. Birincisi, 1920-ci ildə. O vaxt sovet hakimiyyəti bizim tarixi torpağımız olan Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana birləşdirdi. Ondan sonra o bölgədə azərbaycanlılar deportasiyaya məruz qaldılar.

İkinci isə 1923-cü ildə bizim ərazimizdə süni bir qurum yaradıldı – Dağlıq Qarabağ Muxtar Vilayəti, hansı ki, bunun yaradılmasının heç bir əsası yox idi. Nə tarixi əsası var idi, nə coğrafi əsası var idi, nə də iqtisadi əsası var idi. Heç bir əsası yox idi. Sadəcə olaraq, bizim canımıza bu süni bir cisim yeridildi ki, bir canlı bomba kimi orada dursun və vaxtında partlasın. Belə də oldu. 1923-cü il iyulun 7-də Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı. Onun da mərkəzi şəhəri bizim Xankəndi qəsəbəmiz olmuşdu. Ona da cəllad Stepan Şaumyanın adını verdilər, Stepanakert adlandırdılar. Xalqımıza iki böyük zərbə dəymişdi. Ondan sonra da zərbələr oldu. 1940-1950-ci illərdə Ermənistan ərazisindən - qədim Azərbaycan torpaqlarından azərbaycanlıların deportasiyası, 1980-ci illərin sonlarında erməni separatizminin baş qaldırması və buna sovet hakimiyyəti tərəfindən reaksiyanın verilməməsi. Əksinə, separatçıları təhrik edirdilər, onların havadarları bizə meydan oxuyurdular. Dağlıq Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək sovet vaxtında ortaya atılmış tezis idi. Heydər Əliyev hakimiyyətdən gedəndən iki həftə sonra bu, ortalığa atıldı. Görünür ki, çoxdan belə planlar var idi. Amma Heydər Əliyev amili, onun qətiyyəti və gücü imkan vermirdi ki, baş qaldırsınlar. O canlı bomba, hansı ki, 1923-cü ildə qoyuldu Azərbaycanda və o partladı o vaxt. O vaxtkı Azərbaycan rəhbərliyi, sadəcə olaraq, buna ya hazır deyildi, ya da ki, öz vəzifə borcunu yerinə yetirə bilmədi. Bəzi hallarda xəyanət etdi, satqınlıq etdi. Nəticə etibarilə hələ sovet vaxtında Dağlıq Qarabağ Muxtar Vilayəti faktiki olaraq Azərbaycandan defakto ayrılmışdı. Orada bir xüsusi komitə yaradılmışdı. O komitəyə rəhbərlik üçün Moskvadan ermənipərəst bir adam gətirilmişdi. Hansı ki, faktiki olaraq orada ermənilərlə birləşib bizə qarşı iş aparılırdı.

Azərbaycanlılar öz doğma torpağında artıq müdafiəsiz bir topluma çevrildilər. Ondan sonrakı tarix məlumdur. Biz isə tarixi, bu antiazərbaycan siyasətini geri çeviririk. Biz bəzilərinin heç yuxusuna gəlməyən işləri görürük. Bu gün bölgəyə tam sahibik, söz sahibiyik, işğal edilmiş torpaqları azad etmişik. Bu torpaqlarda indi möhkəmlənirik”.

Prezident bir məqamı da diqqətə çatdırıb: “Mən görürəm, bəzi xarici mətbu orqanlarında deyilir ki, Azərbaycan yeddi rayonu azad edib. Bu həqiqətə uyğun deyil. Yeddi rayonu azad edib, amma bununla bərabər Şuşa şəhərini azad edib, bununla bərabər Hadrutu azad edib, bununla bərabər Xocavənd rayonunun 60 faizini azad edib, Suqovuşan qəsəbəsini azad edib. Ona görə biz yeddi rayondan daha çox ərazini azad etmişik. Bu ərazilərin strateji əhəmiyyəti göz önündədir. Hər kəs xəritəyə baxıb görə bilər ki, Azərbaycan hakim strateji nöqtələrə sahibdir, istər Qarabağ bölgəsində, istər Azərbaycan-Ermənistan sərhədində. Əgər 1923-cü il 7 iyul tarixi xalqımızın faciəsi idisə, 2021-ci ildə biz artıq bu qara səhifəni də qapadıq. Artıq 7 iyul gözəl bir tarix kimi tarixdə qalacaq. Çünki 2021-ci il iyulun 7-də mənim tərəfimdən Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının yaradılmasına dair fərman imzalandı, tarixi ədalət bərpa edildi”.

Prezident çıxışının sonunda bir daha şəhidlərimizin əziz xatirəsini yad edərək deyib: “Siz – onların yaxınları onlarla fəxr edirsiniz. Haqlı olaraq fəxr edirsiniz. Bütün Azərbaycan xalqı şəhidlərimizlə, hərbçilərimizlə fəxr edir. Şəhidlərimizin əziz xatirəsi bizim ürəyimizdə əbədi yaşayacaqdır”.

***

Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik-leytenant Ramiz Cəfərovun həyat yoldaşı Sitarə Cəfərova, Vətən müharibəsi şəhidi Fərid Şamilovun atası Mirzə Şamilov və Vətən müharibəsi qazisi, ehtiyatda olan polkovnik-leytenant Ehtiram Məmmədov çıxış edərək göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarlıqlarını bildiriblər.

# Yenidən qurulan təhsil və təlim müəssisələri

Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Xəzər rayonunun Mərdəkan qəsəbəsində Süleyman Rüstəm adına xarici dillər təmayüllü gimnaziyanın, Şüvəlan qəsəbəsində 12 saylı xüsusi internat məktəbinin yeni inşa edilən yataqxana korpusunun, Buzovna qəsəbəsində yenidən qurulan 229 saylı uşaq bağçasının açılışlarında iştirak edib.



Azərbaycan Prezidentinin köməkçisi Anar Ələkbərov məlumat verib ki, 1960-cı ildən fəaliyyət göstərən gimnaziyanın ərazisindəki məktəb və yataqxana binaları istismara yararsız vəziyyətdə olduğundan sökülüb. Heydər Əliyev Fondunun təşəbbüsü ilə onun yerində gimnaziyanın yeni binası tikilib. Xarici dillər təmayüllü gimnaziya 1029 şagird yerlikdir. Kompleksin həyətində yerləşən Laçın məktəbinin binası, yataqxana korpusu da yenidən inşa edilib.

Sonra Birinci vitse-prezident Mehriban Əliyeva Şüvəlan qəsəbəsində istifadəyə verilən 12 saylı xüsusi internat məktəbinin yeni inşa edilən yataqxana korpusu ilə tanış olub. Məlumat verilib ki, 1972-ci ildən fəaliyyət göstərən 12 saylı xüsusi internat məktəbində dayaq-hərəkət pozğunluğu olan sağlamlıq imkanları məhdud 6-14 yaş həddində 120 şagird təhsil alır. Tədris korpusunun daxilində yerləşən yataqxana Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq tədris otaqlarına uyğunlaşdırılıb və müəssisənin ərazisində yeni yataqxana korpusu inşa edilib.

Birinci vitse-prezident Heydər Əliyev Fondunun təşəbbüsü ilə Buzovna qəsəbəsində yenidən qurulan 229 saylı uşaq bağçasında yaradılan şəraitlə də tanış olub. Vaxtilə fərdi yaşayış evi kimi inşa olunan bina 1957-ci ildən uşaq bağçasına uyğunlaşdırılıb. 1937-ci ildə inşa olunan bina qəzalı vəziyyətdə olduğundan sökülərək Heydər Əliyev Fondunun təşəbbüsü ilə yerində yeni bağça binası inşa edilib.

# Paytaxtımıza, təbiətə, insanlara sevgi ilə

*əvvəli səh. 1-də*

Parkda şəhər sakinlərinin və qonaqların istirahəti üçün müxtəlif infrastruktur yaradılıb. Buraya üz tutanlar həm yay, həm də qış aylarında paytaxt Bakının, o cümlədən Xəzər dənizinin əsrarəngiz mənzərəsini də seyr edə bilərlər.

“Gənclik” parkı 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac əkilib, yaşıllıqlar salınıb. Bir sözlə, sakinlər və qonaqlar parkda asudə vaxtlarını səmərəli keçirə biləcəklər.

Yeni istirahət məkanında həm uşaqlar, həm də böyüklər üçün idman və əyləncə sahələri yaradılıb, attraksion quraşdırılıb. Həmçinin Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahəsi yaradılıb.

“Gənclik” parkının tərtibatı zamanı hər bir detal xüsusi zövqlə hazırlanıb. Burada təqdim olunan “Ürəklər” kompozisiyası paytaxtımıza, təbiətimizə, insanlarımıza olan sevgini tərənnüm edir.



Parkda bağlı və açıq futbol meydançaları inşa olunub. Burada ziyarətçilər üçün piknik məntəqələri də var. Qaçış üçün cığırlar, eləcə də velosiped yolları parkın idmansevərlərin də ən çox üz tutduqları məkana çevriləcəyindən xəbər verir.

Park ərazisinin genişliyi nəzərə alınaraq istirahət edən şəxslərin rahatlığı üçün müvafiq məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılan göldür.

Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Fond ölkəmizdə yeni yaşıllıqların salınması və mövcud yaşıllıq sahələrinin qorunması üzrə layihələr icra edir. Bu sahədə Fondun vitse-prezidenti, İDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var.

“Gənclik” parkı paytaxtda aparılan abadlıq-quruculuq işlərinə mühüm töhfə verməklə ölkənin sosial-ekoloji hədəflərinin reallaşdırılmasının davamlı xarakter aldığını bir daha təsdiqləyir.

# Ermənistan XİN-in “yaddaş pozğunluğu”

Rəsmi İrəvanın UNESCO missiyası ilə bağlı bəyanatına cavab

*əvvəli səh. 1-də*

“Bu fakt təşkilatın hesabatlarında əks olunub. Ermənistan XİN-ə UNESCO-nun 2005-ci ildə dərc etdiyi fəaliyyət hesabatı ilə tanış olmağı tövsiyə edirik. Hesabatda aydın şəkildə, Azərbaycan hökumətinin Dağlıq Qarabağ və işğal olunmuş digər ətraf ərazilərə fakt araşdırma missiyasının göndərilməsi müraciəti, lakin Ermənistanın hərbi işğalı səbəbindən bu missiyanın həyata keçirilməsinin mümkün olmadığı qeyd olunur”, – deyə L.Abdullayeva bildirib.

Xatırladaq ki, avqustun 25-də Ermənistan XİN Azərbaycanın işğaldan azad edilmiş ərazilərində UNESCO missiyasının həyata keçirilməsinin vacibliyinə dair bəyanat yayaraq ölkəmizi erməni abidələrini dağıtmaqda ittiham edib.

L.Abdullayeva qeyd edib ki, Azərbaycan ərazilərini işğaldan azad etdikdən sonra Ermənistanın bu torpaqlarda törətdiyi məqsədyönlü dağıntıların miqyası beynəlxalq ictimaiyyət, o cümlədən dövlətlərin rəsmi nümayəndələri, müstəqil media agentlikləri, habelə qeyri-hökumət təşkilatları və s. tərəfindən ətraflı şəkildə qeydə alınıb: “Görünməmiş vandallıq və “mədəni təmizləmə” törətmiş bir ölkənin öz əməllərini ört-basdır etmək üçün Azərbaycana qarşı yalan və cəfəng ittihamlarla çıxış etməsi təcrübəsi, təəssüf ki, yeni deyil. Ermənistan tərəfi sonunda anlamalıdır ki, bu təcrübənin heç bir perspektivi yoxdur”.

XİN nümayəndəsi diqqətə çatdırıb ki, Azərbaycan işğaldan azad olunmuş ərazilərimizə UNESCO-nun müstəqil və obyektiv missiyasının həyata keçirilməsi məsələsinə dəfələrlə münasibət bildirib, hətta bu prosesi sürətləndirməyə çağırıb: “Rəsmi İrəvanın belə bir missiyanın həyata keçirilməsinə etiraz etmədiyini bəyan etdiyinə görə, ümid edirik ki, missiya yaxın zamanlarda reallaşacaq və onilliklər ərzində Azərbaycan ərazilərində Ermənistan tərəfindən aparılmış tarixi, mədəni və dini irsin məqsədli şəkildə məhv edilməsi siyasətinin nəticələri qeydə alınacaq”.

# Rusiyanın mədəniyyət xadimləri Mehriban Əliyevanı təbrik ediblər

## "Onun mədəni əməkdaşlığa qayğıkeş münasibəti Azərbaycanla mütəmadi əlaqə saxlamağımıza kömək edir"

Rusiyanın tanınmış mədəniyyət xadimləri Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik ediblər.

"Vestnik Kavkaza" müxbirləri ilə söhbətində Rusiyanın məşhur teatr və kino rejissoru, "Nika" mükafatının bədii rəhbəri, əslən bakılı Yuli Qusman Mehriban Əliyevanın simasında qadın gözəlliyi və təşkilatçılıq istedadının birləşdiyini qeyd edib.

"O, ilk gündən olduğu kimi, dahi qadın olaraq qalır. İnsanın mahiyyəti, Allahın, təbiətin, valideynlərin və ya genetikanın, necə istəyirsiniz, ona bəxş etdiyi qanadlardır və bu qanadlar, əlbəttə, Mehriban Əliyevada var. O, Azərbaycanda mədəniyyətin, incəsənətin, Olimpiya hərəkatının, ümumiyyətlə, idmanın inkişafında və həmçinin Rusiya-Azərbaycan münasibətlərində çox böyük rol oynayır, çünki biz yaxın qonşuyuq və bizim hər zaman gözəl münasibətlərimiz olmalıdır", – deyə o bildirib.

"Ən əsası, o bunu, diplomatik səylər və çox vaxt müxtəlif səviyyələrdə aparılan danışıqlara xas saxtakarlıq olmadan asanlıqla edir. O, taleyin və xalqın iradəsi ilə onun liderlərindən biri olan təbii, sadə insandır. O, bu böyük və çətin yükü ləyaqətlə, məhəbbət və anlayışla daşıyır. Mən ona xoşbəxtlik, sağlamlıq və malik olduğu böyük iş qabiliyyətinin yalnız doğum günündə deyil, daim qorunmasını diləyirəm. Onu sevən milyonlarla insan mənim kimi düşünür", – deyə Yuli Qusman vurğulayıb.

Rusiya Teatr Sənəti İnstitutunun rektoru Qriqori Zaslavski qeyd edib ki, Mehriban Əliyeva Rusiya ilə Azərbaycan arasında əməkdaşlıqda mühüm rol oynayır: "O, mədəniyyətə və münasibətlərə heç vaxt biganə yanaşmır. Biz çox gözəl başa düşürük ki, bu gün artıq fərqli dövlətlərdə yaşadığımız zaman dövlətlərarası təmaslardakı mədəni əlaqələr bizim yaxın qalmağımız və bir-birimizi anlamağımız üçün çox böyük əhəmiyyət kəsb edir".



Qriqori Zaslavski deyib: "Mehriban xanımın bir çox teatr, muzey və sərgi layihələrində fəal, ilhamlı, şəxsi iştirakı bu gün Azərbaycanı təkcə sevimli və möhtəşəm mətbəxi ilə deyil, eyni zamanda, himayəçisi Azərbaycanın Birinci vitse-prezidenti olan müxtəlif mədəni hadisələrlə bizə yaxın olan dövlət kimi hiss etməyə imkan verir".

Dövlət Teatr Sənəti İnstitutunun rektoru vurğulayıb ki, Mehriban Əliyeva dəfələrlə Azərbaycanda Rusiya teatrlarının qastrol səfərlərini və digər irimiqyaslı layihələrini dəstəkləyib: "Onun mədəni əməkdaşlıq məsələlərinə qayğıkeş münasibəti bu gün də Azərbaycanla mütəmadi əlaqə saxlamağımıza kömək edir. Hətta indi, pandemiya dövründə də, bu əməkdaşlıq davam edir. Məsələn, yazda Şərq Muzeyində "Nizaminin süjetləri və obrazları" sərgisi keçirildi. Yəni, hər şeyin asan olmadığı bu gün də Mehriban Əliyevanın diqqəti sayəsində ölkələrimiz arasında mədəni dialoq davam edir".

"Kinolestnitsa" yaradıcılıq birliyinin baş prodüseri Yelena Tverdoxleb bütün kollektiv adından Mehriban Əliyevanı doğum günü münasibətilə təbrik edib. "Azərbaycanın Birinci vitse-prezidentinə, Heydər Əliyev Fondunun prezidentinə səmimi qəlbdən möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, yüksək vəzifədə uğurlar arzulayıram", – deyə o bildirib.

Yelena Tverdoxleb bildirib ki, Mehriban Əliyeva Rusiyada tanınır və dəyərləndirilir, ölkələrimizi mədəniyyət və incəsənət də daxil olmaqla, möhkəm dostluq, mehriban qonşuluq və müxtəlif sahələrdə əməkdaşlıq ənənələri birləşdirir. Rusiya ilə Azərbaycan arasında münasibətlər ən yüksək səviyyədədir, humanitar sahədə isə nümunəvi xarakter daşıyır və bu işdə Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu çox böyük rol oynayır: "Mənə Mehriban Əliyeva ilə görüşmək nəsib olub. Onun cazibədarlığını, səmimiliyini, erudisiyasını, problemlərin optimal həllini tapmaq bacarığını qeyd etmək istəyirəm. Böyük bir yaradıcı kollektivin baş prodüseri olaraq, mənim üçün, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva insanlararası ünsiyyətin xüsusilə vacib olduğu sahədə məqsədyönlü və nümunəvi lider, qadın olaraq isə gözəllik və zəriflik nümunəsidir".

Yelena Tverdoxleb fikirlərini belə yekunlaşdırıb: "Mehriban Əliyevanın adı görkəmli şəxsiyyət kimi artıq müasir tarixə yazılıb. O, təbiətin, cəmiyyətin və mənəvi ehtiyacların əvvəlcədən müəyyən edildiyi bütün sahələrdə özünü reallaşdırmağı bacaran bütün ahəngdar, məqsədyönlü və güclü qadınlar üçün bir nümunə oldu".

Tarixçi və yazıçı Nataliya Zazulina Mehriban Əliyevanın ən parlaq qadın siyasətçilərdən biri olduğunu bildirib. "O, postsovet məkanında son 30 ilin ən parlaq birinci xanımıdır. Həm nüfuzuna, həm də apardığı humanitar missiyaya görə dünya miqyasında da diqqəti cəlb edir. Azərbaycanın müasir mədəniyyətinə və Rusiya-Azərbaycan münasibətlərinə verdiyi töhfəyə görə mənim ona çox dərin hörmətim var", – deyə o qeyd edib.

"Mehriban Əliyevanın Rusiya mədəniyyət xadimlərinə necə münasibət bəslədiyi çox vacibdir. Mən, məsələn, Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın həm Rusiya, həm də Azərbaycan üçün son dərəcə əhəmiyyətli şəxsiyyət olan Müslüm Maqomayevin xanımına və ya dahi Azərbaycan yazıçısı, ortaq mədəniyyətimizdə böyük bir sütun olan Maqsud İbrahimbəyovun həyat yoldaşına necə hörmətlə yanaşdığını görmüşəm. Dünya incəsənətində ayrıca üslubun yaradıcılarından sonuncusu, bu yaxınlarda vəfat edən dahi sənətkar Tahir Salahovun xatirəsinə Azərbaycanın necə münasibət bəslədiyini də qeyd etməmək olmaz. Bütün bunlar, əlbəttə, hörmətə layiqdir", – deyə Nataliya Zazulina vurğulayıb.

# VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası oktyabrda keçiriləcək

Xəbər verdiyimiz kimi, paytaxtımız növbəti kitab bayramına – artıq ənənə halını almış sərgi-yarmarkaya ev sahibliyi edəcək.

VII Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası oktyabrın 6-dan 10-dək Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Bakı Ekspo Mərkəzində keçiriləcək.

Azərbaycan Respublikası Prezidentinin ölkəmizdə 2021-ci ilin "Nizami Gəncəvi İli" elan edilməsi haqqında müvafiq sərəncamının icrası ilə əlaqədar Nazirlər Kabinetinin təsdiqlədiyi Tədbirlər Planına uyğun olaraq builki sərgi-yarmarka dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunacaq.




Cəmiyyətdə mütaliənin təbliğini, kitab işi sahəsində istedadlı şəxslərin geniş kütlələrə tanıdılmasını və xüsusilə COVİD-19 pandemiyası səbəbindən müəyyən çətinliklərlə üzləşən yaradıcı sənayelərin dəstəklənməsini hədəfləyən sərgi-yarmarkanın zəngin proqramı var. Kitab bayramında kitab təqdimatları, yazarlarla görüşlər, işgüzar toplantılar və Nizami Gəncəvinin həyat və yaradıcılığına dair müxtəlif tədbirlər sərgi ziyarətçilərinin marağına səbəb olacaq.

100-dək yerli nəşriyyat-poliqrafiya müəssisəsinin, kitab evinin, müxtəlif kütləvi və universitet kitabxanalarının, həmçinin Türkiyə və Rusiya daxil olmaqla, bir sıra ölkələrdən kitab işi sahəsində çalışan qonaqların sərgi-yarmarkada iştirakı gözlənilir.

Sərgi-yarmarka iştirakçıları təşkilatçılar tərəfindən 6 kvadratmetrə qədər ekspozisiya sahəsi və lazımi avadanlıqlarla ödənişsiz təmin ediləcək.

İştirakçıların və ziyarətçilərin sağlamlığının qorunması məqsədilə sərgi-yarmarkanın COVİD-19 pandemiyası ilə əlaqədar tətbiq olunan xüsusi karantin rejiminin tələblərinə tam uyğun təşkili planlaşdırılır. Sanitariya-gigiyena qaydalarının tətbiqi ilə yanaşı, sərgi-yarmarka məkanında sıxlığın yaranmaması üçün metronun müxtəlif stansiyalarının çıxışında ziyarətçiləri müəyyən fasilələrlə Bakı Ekspo Mərkəzinə daşıyan xüsusi avtobuslar ayrılacaq. Qeyd olunan tədbirlərlə bağlı əvvəlcədən kütləvi informasiya vasitələrində elanlar veriləcək.

Sərgi-yarmarkaya iştirakçı və ya ziyarətçi qismində qatılmaq istəyənlər ətraflı məlumat əldə etmək üçün sərginin rəsmi veb-saytına (www.bakubookfair.az), sosial media hesablarına daxil ola və yaxud telefon (+99412 404 10 00), e-mail (bookfair@ceo.az) vasitəsilə müraciət edə bilərlər.

Qeyd edək ki, Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkası ilk dəfə 2009-cu ildə keçirilib və ənənəvi olaraq iki ildən bir təşkil olunur.

# Latın Amerikası ölkələrinin media təmsilçiləri Azərbaycanda səfərdədir

Azərbaycan Respublikasının Meksikadakı Səfirliyinin dəstəyi ilə – Meksika, Kolumbiya, Peru, Qvatemala, Kosta-Rika, Honduras və Panamanın media nümayəndələri ölkəmizdə səfərdədir. Səfər 44 günlük Vətən müharibəsindən sonra regionda yaranmış vəziyyət, azad edilmiş ərazilərimizin durumu, məcburi köçkünlərin geri qayıtmasına münasibətdə mövcud maneələr, aparılan bərpa və quruculuq işləri, eləcə də digər məsələlərin bu ölkələrin kütləvi informasiya vasitələrində işıqlandırılması məqsədi daşıyır.



Latın Amerikası ölkələrinin media nümayəndələri avqustun 26-da Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətində olublar.

Dövlət Xidmətindən bildirilib ki, görüşdə Meksikanın "El Universal" qəzetinin redaktoru Qabriel Moyssen, Kolumbiyanın "İmpacto Mundo" telekanalının aparıcısı Roberto Trobaxo, Peru Jurnalistlər Federasiyasının vitse-prezidenti Rikardo Sançes, Perunun "La Razon" qəzeti və "Prensa 21" xəbər portalının direktoru Karlos Linares Uarinqa və Kosta-Rikanın "Horizontes TV" telekanalının aparıcısı Denis Mora Qusman iştirak edib.

Dövlət Xidmətinin nümayəndəsi Ağacavid Ramazanov qonaqları salamlayaraq 1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi işğalçılıq siyasəti və onun ağır nəticələri haqqında məlumat verib. Qeyd edib ki, işğaldan azad olunmuş ərazilərdə 706-sı dövlət qeydiyyatında olmaqla 2600-dən çox tarix-mədəniyyət abidəsi var. 30 ilə yaxın bir müddətdə davam edən işğal dövründə Ermənistan tərəfi Azərbaycan xalqına məxsus tarixi abidələrə, mədəni irs obyektlərinə qarşı vandalizm aktı həyata keçirib, mənimsəyib və misli görünməmiş dağıntılar törədib. Bütün bunlar Dövlət Xidməti tərəfindən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən monitorinqlər nəticəsində qeydə alınır.

Vurğulanıb ki, Azərbaycan bütün tarixi abidələri bərpa edərək yenidən öz tarixi görkəminə qaytaracaq.

Görüşdə qeyd olunan məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Qonaqları maraqlandıran suallar cavablandırılıb.

***

Latın Amerikası ölkələrinin media təmsilçiləri ilə daha bir görüş avqustun 25-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində olub. Komitənin sədri Rövşən Rzayev jurnalistlərlə görüşüb.

Qonaqlara qaçqın və məcburi köçkünlərlə iş sahəsində dövlət siyasətinin əsas istiqamətləri, Dövlət Komitəsinin fəaliyyəti barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, Ermənistanın deportasiya, milli ayrı-seçkilik və işğalçılıq siyasəti nəticəsində öz doğma yurdundan didərgin düşən insanlar böyük çətinliklərlə üzləşib, maddi itkilərə məruz qalıb, mənəvi-psixoloji sarsıntı keçiriblər. Torpaqların işğaldan azad edilməsi və orada yaşayışın bərpası məcburi köçkünlərin ən böyük arzusu olub. Hazırda onların təhlükəsiz və ləyaqətli şəkildə qayıdışının təmin edilməsi üçün dövlət rəhbərliyi və səlahiyyətli orqanlar tərəfindən çoxşaxəli və intensiv iş aparılır.

Jurnalistlər işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq tədbirləri və məcburi köçkünlərin qayıdışa hazırlanması məsələləri ilə maraqlanıblar. Onların suallarına ətraflı cavablar verilib.

Əməkdaşlıq etdiyi media qurumlarında ölkəmiz, xüsusən işğaldan azad olunmuş ərazilərdəki dirçəliş prosesi barədə yazılarla çıxış edən kolumbiyalı jurnalist Roberto Trobaxo bir müddət bundan əvvəl də Azərbaycanda olduğunu, Gəncəyə və Şuşaya getdiyini, işğalın və dinc əhaliyə qarşı hərbi cinayətlərin ağır nəticələrini öz gözləri ilə gördüyünü xatırladaraq, bütün bunlar barədə həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılmasına çalışdığını vurğulayıb.

Qeyd edək ki, görüşdə iştirak edən jurnalistlər Meksikadakı səfirliyimizdə akkreditə olunublar və öz ölkələrində Azərbaycanla bağlı mövzuların işıqlandırılmasında fəallıq göstərirlər.

Görüşdən sonra nümayəndə heyəti məcburi köçkünlərin müvəqqəti məskunlaşdığı Abşeron rayonunun Masazır qəsəbəsi ərazisindəki yaşayış kompleksində vəziyyətlə tanış olub.

Latın Amerikası ölkələrinin media təmsilçilərinin səfəri avqustun 29-dək davam edəcək.

## "Bu dağıntıları gəlib yerində görmək lazımdır, kədərli mənzərədir"

İşğaldan azad olunmuş torpaqlardakı dağıntıları gəlib yerində görmək lazımdır. Kədərli mənzərədir. Müharibə başa çatıb və Azərbaycan öz ərazilərini azad edib. Azad olunmuş torpaqlarda yenidənqurma işlərinin həyata keçirilməsi isə çox sevindiricidir. Bu işlər kifayət qədər vaxt və maddi resurs tələb edir.




Bu sözləri Füzuli rayonuna səfər zamanı Meksikanın "El Universal" qəzetinin əməkdaşı Qabriel Moyssen deyib.

"Meksikaya qayıtdıqdan sonra Azərbaycana səfərim, viran qoyulmuş bu yerlər haqqında silsilə yazılar yazacağam. Bu yazılarda müharibənin dəhşətləri, geriyə qalan problemlər, azad olunmuş ərazilərin yenidən qurulması üçün Azərbaycanın gördüyü işlər və qazanılan uğurlar əks olunacaq", – deyə o əlavə edib.

Qeyd edək ki, avqustun 26-da Latın Amerikası ölkələrindən olan KİV nümayəndələrinin işğaldan azad edilən ərazilərə səfəri başlayıb.

# Vokalçıların beynəlxalq müsabiqədə uğuru

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası məktəb-studiyasının şagirdi Teymur Kazımov ABŞ-ın Klivlend şəhərində təşkil olunan "The Stars of Summer" ("Yay ulduzları") Vokalçıların və pianoçuların II Beynəlxalq müsabiqə-festivalında uğurla iştirak edib.

Müsabiqə-festivala onlayn formatda qatılan Teymur Kazımov "akademik vokal" nominasiyasında Qran-pri mükafatını qazanıb. O, laureatların qala-konsertində də onlayn formatda çıxış edib.

Müsabiqədə Kanada, Avstriya, Rusiya, Almaniya, Yunanıstan, Ukrayna və Çindən pianoçu və vokalçılar da iştirak ediblər. Müsabiqənin sponsoru "Geauga West Rotary Club" tərəfindən Teymur Kazımova pul mükafatı təqdim edilib.

Teymur Kazımov M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının "Gənclərə dəstək" layihəsinin iştirakçısı, beynəlxalq müsabiqələr laureatıdır. Gənc vokalçını müsabiqəyə BMA-nın məktəb-studiyasında solo vokal sinfi üzrə müəllim Ofeliya Axundova və konsertmeyster Dilarə Kərimova hazırlayıblar.

Müsabiqədə Azərbaycanı təmsil edən daha bir vokalçı Kamilla İmanova isə birinci yerə layiq görülüb.

# "YARAT"da açılan "XX əsrin son çiçəkləri..."

## Dekabrın axırınadək ziyarət üçün açıq olacaq

"YARAT" Müasir İncəsənət Mərkəzində açılan "XX əsrin son çiçəkləri: Y nəsli" adlı qrup sərgisi davam edir. Sərgidə Azərbaycan, Gürcüstan, İsrail və Ukraynadan olan gənc rəssamların əsərləri yer alıb.

"Y nəsli" və ya "millenniallar" – XX əsrin son onilliklərində (80-90-cı illər) doğulmuş, lakin yeni minillikdə böyümüş insanlardır. Onları əvvəlki və sonrakı nəsillərdən fərqli olan insanlar kimi dəyərləndirirlər ki, bu da həmin nəslin unikallığını vurğulayır. Ötən əsrin "son çiçəkləri" sayılan bu nəsil, mövcud reallığı şəxsi reallıqları vasitəsilə qurublar.

Sərgi başlıca diqqəti sosial qavrayışın müxtəlif səviyyələri vasitəsilə özünüidentifikasiya və özünüifadə üsullarına cəlb edir.



Sərgi sovet keçmişinə istinad edən reallığı əks etdirməklə rəssamların gənclik təcrübəsini ifadə edir. Statik və ya dinamik, durğun və ya mütərəqqi – burada insanların həyatı necə qavraması ilə bağlı müxtəlif təsvirlər var. Yaddaş və nostaljiyə qərq olan əsərlər sözügedən nəslin formalaşmasında həlledici amil kimi çıxış edən sosial mühiti tədqiq edir. Əsərlər mədəniyyət, submədəniyyət və tendensiyalar kimi anlayışlara nəzər salaraq həyat tərzi və davranışla bağlı əsas ahəngləri ortaya qoyur.

"XX əsrin son çiçəkləri: Y nəsli" sərgisi 6 gənc rəssamın video, fotoqrafiya və fotoinstalyasiyalarını bir araya gətirir. Alina Orlov (İsrail), Giorgi Rodionov (Gürcüstan), Zamir Süleymanov (Azərbaycan), Yarema Malaşçuk, Roman Himey və Saşa Kurmazın (hər üçü Ukrayna) seçilmiş əsərləri, eyni zaman kəsiyində yaşayan və müxtəlif ölkələrdən olan gənclərin fərqli reallıqlarını, dəyərlərini və qavrayışlarını nümayiş etdirir.

Dekabrın 30-dək ziyarət üçün açıq olacaq sərginin kuratoru Fərəh Ələkbərlidir.

№64 (1841)
27 avqust 2021
www.medeniyyet.az

# Qəhrəmanlıq yolu – əbədiyyət yolçuları

Sumqayıt Regional Mədəniyyət İdarəsinin rəisi Rəşad Əliyev, Abşeron rayonu üzrə nümayəndə İlham Manafov, idarənin məsləhətçisi, şəhid anası Ceyran Həsənova, Abşeron rayon Mədəniyyət Mərkəzinin direktoru Samirə Qafarova şəhid Milli Qəhrəman, general-mayor Polad Həşimovun ailəsini ziyarət ediblər.



Milli Qəhrəmanın anası Səmayə Həşimova, qardaşı İlham Həşimov Vətəninə sonsuz sevgi bəsləyən əzizləri haqqında xatirələrini bölüşüblər. Regional idarə tərəfindən Polad Həşimovun yağlı boya ilə çəkilmiş portreti xatirə olaraq ailəsinə hədiyyə edilib.

Masallı Regional Mədəniyyət İdarəsinin rəisi Bəxtiyar Qılıncov, idarənin əməkdaşları və tabe müəssisələrin rəhbərləri Vətən müharibəsi şəhidləri Murad Nəfəsov, Elməddin Nəzərov və İbrahim Lələyevin ailələrinə baş çəkiblər.



Kürdəmir Regional Mədəniyyət İdarəsi İmişli rayon Mədəniyyət Mərkəzində Vətən müharibəsinin şəhid baş leytenantı Cavid Səfərlinin həyat yolundan bəhs edən “Qəhrəmanlıq yolu” adlı sənədli film nümayiş olunub. Filmin ssenari müəllifi Xəqani Əliyev, quruluşçu rejissoru Əli Mikayılovdur.

Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon Mədəniyyət Mərkəzinin əməkdaşları İkinci Qarabağ müharibəsi şəhidi Orxan Ərəbovun doğum günündə məzarını ziyarət ediblər.



Şəki Regional Mədəniyyət İdarəsinin əhatə etdiyi Oğuz rayon MKS-nin kənd kitabxana filiallarının əməkdaşları Vətən müharibəsi şəhidi Vüsal İsmayılovun məzarını ziyarət edib, ailəsinə baş çəkiblər. Balakən rayon Şərif kənd Sənətkarlıq klubu və Yeni Şərif kənd Sənətkarlıq evinin əməkdaşları İkinci Qarabağ müharibəsi şəhidi Məhəmməd Murtuzovun ailəsi ilə görüşüblər.

# “Bədii söz sənətinin incisi”

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağcabədi Rayon Tarix-Diyarşünaslıq Muzeyində ”Nizami Gəncəvi İli” çərçivəsində ”Ağcabədi gəncliyi və Ağcabədi ədəbi mühiti” mövzusunda dəyirmi masa təşkil edilib.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin üzvləri – şairlər Gündüz Sevindik, Məhsəti Musa, rayon Tarix-Diyarşünaslıq Muzeyi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Ağcabədi nümayəndəliyinin əməkdaşları iştirak ediblər.

Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon Heydər Əliyev Mərkəzinin kitabxanasında oxucuların iştirakı ilə Nizami Gəncəvi əsərlərinin müzakirəsi təşkil olunub.

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon MKS-nin Hüseynbəyli kənd kitabxana filialı “Nizami Gəncəvi poeziyası” adlı “ucadan oxu saatı” təşkil edib.



Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa Dövlət Rəsm Qalereyası və rayon MKS-nin birgə təşkilatçılığı ilə “Bədii söz sənətinin incisi” adlı tədbir keçirilib. MKS-nin və Ağstafa Dövlət Rəsm Qalereyası əməkdaşlarının iştirak etdiyi tədbirdə dahi şairin poetik qüdrətindən söz açılıb.



Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon Mədəniyyət Mərkəzinin tabeliyində fəaliyyət göstərən Əhmədabad kənd Folklor evində “Nizami-880” mövzusunda tədbir keçirilib. Çıxışlarda bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış Nizami Gəncəvinin həyat və yaradıcılığından bəhs olunub.

# Bölgələrdə müxtəlif səpkili tədbirlər



Şəmkir Regional Mədəniyyət İdarəsi Göygöl rayon MKS-nin və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə Xalq şairi Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığına həsr edilmiş tədbir keçirilib.

Şəki Regional Mədəniyyət İdarəsi Balakən rayon Tülü kənd Folklor evində Aşıq Ələsgərin 200 illik yubileyi ilə əlaqədar “Ustad sənətkar” başlığı altında tədbir keçirilib. Zaqatala rayon Kəpənəkçi kənd kitabxanasında “Yay məktəbi” çərçivəsində məktəblilər üçün “oxu saatı” təşkil olunub. Qax rayon Ağçay kənd kitabxanasında Azərbaycan tarixindən bəhs edən kitabların stolüstü sərgisi təşkil edilib. Oğuz rayon MKS-nin Baş Daşağıl kənd kitabxana filialının həyətində Aşıq Ələsgərin yubileyi münasibətilə “Xoş gəldin” adlı tədbir keçirilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Gənclər qəsəbə kitabxana filialının təşkilatçılığı ilə “Sehrli uşaq dünyası” başlığı altında tədbir keçirilib. Qusar rayon Heydər Əliyev Mərkəzində şəhid anaları və Yeni Azərbaycan Partiyası (YAP) Qusar rayon təşkilatı qadın fəallarının iştirakı ilə “Zəfər tariximizdə Azərbaycan qadınının rolu” mövzusunda konfrans keçirilib. Mərkəzin direktoru Neva Abdurahmanova Vətən müharibəsinin tarixi Qələbədə xalqın Ali Baş Komandana və Azərbaycan Ordusuna olan inamının böyük rol oynadığını söyləyib.

Gənclər və İdman Nazirliyi, İsmayıllı Rayon İcra Hakimiyyəti və İsmayıllı Regional Mədəniyyət İdarəsinin dəstəyi, İsmayıllı Regional Gənclərin Resurs Mərkəzinin təşkilatçılığı ilə “Gənclərin inkişaf forumu” keçirilib. İsmayıllı, Qəbələ, Şəki və Kürdəmir rayonlarından gənclərin iştirak etdiyi tədbirdə çıxış edən İsmayıllı Regional Mədəniyyət İdarəsinin rəisi Elçin Nəcəfov dövlət başçısı tərəfindən mədəniyyətə, milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına göstərilən yüksək diqqət və qayğıdan söz açıb. Bildirilib ki, mədəniyyətimizin təbliği və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən biridir.

Gəncə Regional Mədəniyyət İdarəsi Goranboy rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin işçiləri Heydər Əliyev parkında kiçikyaşlı uşaqların asudə vaxtının səmərəli təşkili məqsədilə “Bu kitabları oxuyun” adlı sərgi keçiriblər.



Ağdaş Regional Mədəniyyət İdarəsi Göyçay rayon Mərkəzi Kitabxanasının qarşısında ”açıq kitabxana” təşkil edilib. Tədbirdə müxtəlif yaş qruplu oxucular kitabxanaya yeni gəlmiş kitablarla tanış olublar.

Sabirabad Regional Mədəniyyət İdarəsi Saatlı rayon Heydər Əliyev Mərkəzində “İki nəslin görüşü” adlı tədbir təşkil olunub. Tədbirdə çıxış edənlər ölkəmizin əldə etdiyi uğurlarda gənclərin rolundan söz açıblar.

Ağstafa Regional Mədəniyyət İdarəsi Qazax rayon MKS-nin E.Hüseynov adına Mərkəzi Kitabxanası “Yay məktəbi” çərçivəsində “Kitab işıq saçır bir günəş kimi” adlı səyyar sərgi təşkil edib. Sərgidə tariximiz, milli-mənəvi dəyərlərimiz, görkəmli şəxsiyyətlərimiz haqqında kitablar nümayiş olunub.

**Hazırladı: N.MƏMMƏDLİ**

# Füzuli aeroportunun fəaliyyətə başlaması üçün hazırlıq görülür

## Rayon sakinləri vakant yerlərə işə dəvət olunur



”Azərbaycan Hava Yolları” QSC (AZAL) yeni inşa olunan Füzuli Beynəlxalq Hava Limanında rayon sakinləri üçün vakant yerlərin açıldığını elan edib.

AZAL-dan verilən məlumata görə, Qarabağda ilk hava limanının açılışı ərəfəsində Füzuli sakinləri Azərbaycanın mülki aviasiyası kimi maraqlı və məsuliyyətli sahədə karyeraya başlamağa dəvət olunurlar. İxtisas seçimi müsabiqə əsasında aparılacaq.

Vakant yerdən asılı olaraq ali, orta ixtisas, orta təhsil və ya iş təcrübəsi tələb oluna bilər. Daha ətraflı məlumatı “Azərbaycan Hava Yolları” QSC-yə müraciət edərək əldə etmək olar. CV-ləri hr@azal.az elektron ünvanına göndərmələri xahiş olunur.

Xatırladaq ki, Füzulidə hava limanının təməli 2021-ci ilin yanvar ayında Prezident İlham Əliyev tərəfindən qoyulub. Hazırda tikinti işləri son mərhələdədir, uçuşların təhlükəsizliyini, sərnişin və yük aviadaşımalarının yüksək həcmlərini təmin etmək üçün nəzərdə tutulmuş ən yeni infrastruktur obyektləri istismara verilir. Sınaq uçuşlarının həyata keçirilməsi isə bu ilin sentyabr ayının əvvəlində nəzərdə tutulub. Tikinti işləri sürətlə davam edir və hava limanının açılışı bu ilin sonunadək planlaşdırılır.

# Amerikadan gətirilən minaaxtaran itlər

## ANAMA-nın əməkdaşlarına təqdim edilib



Xəbər verildiyi kimi, ABŞ-ın Marşal İrsi İnstitutu tərəfindən Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin minalardan təmizlənməsinə kömək məqsədilə xüsusi təlim keçmiş minaaxtaran itlər ayrılıb.

Marşal İrsi İnstitutunun nümayəndələri Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) Füzuli rayonundakı minaaxtaran itlərin təlim mərkəzini ziyarət ediblər.

ANAMA-dan bildirilib ki, mütəxəssislər avqustun 23-də gətirilən 10 baş minaaxtaran itin saxlanması, qidalanması və gələcək akkreditasiya prosedurları barədə MİI nümayəndələrinə geniş məlumat verib.

Marşal İrsi İnstitutunun prezidenti Perri Baltimor qeyd edib ki, 2023-cü ilə qədər Azərbaycana 30 minaaxtaran itin verilməsi nəzərdə tutulub. Qeyd edək ki, 10 xüsusi təlim keçmiş it “Silk Way West Airlines” şirkəti tərəfindən Azərbaycana çatdırılıb.

Avqustun 26-da müvafiq anlaşma memorandumu və müqavilə sənədi ANAMA İdarə Heyətinin sədri Vüqar Süleymanov və Marşal İrsi İnstitutunun prezidenti Perri Baltimor tərəfindən imzalanıb.

# “Kəndlərdə mədəniyyət günləri” davam edir

Xaçmaz Regional Mədəniyyət İdarəsinin təşəbbüsü ilə keçirilən ”Kəndlərdə mədəniyyət günləri” layihəsi çərçivəsində növbəti tədbir Quba rayonunun Yeni Güləzi kəndində gerçəkləşib.

“44 günlük Zəfər yolu” mövzulu tədbir B.Səfəroğlu adına Quba rayon Mədəniyyət Mərkəzinin Güləzi kənd Folklor klubu və Quba rayon MKS-nin Güləzi kənd kitabxana filialının birgə təşkilatçılığı ilə baş tutub.



Tədbir iştirakçıları öncə kəndin qədim adət-ənənələrini özündə əks etdirən sənət nümunələri – rəsm əsərləri, kənd Folklor klubunda özfəaliyyət dərnəyi üzvlərinin və kitabxana filialı oxucularının əl işləri, Vətən müharibəsi şəhidlərinin fotolarından ibarət stendləri, eyni zamanda “Nizami Gəncəvi-880”, “Azərbaycan klassikləri”, “Bədii ədəbiyyat”, “Uşaqların sevimli nağıl dünyası” və s. başlıqlı kitab sərgiləri ilə tanış olublar.

Regional idarənin rəisi Vüsal Hüseynov çıxışında bildirib ki, layihənin əsas məqsədi gənc nəslə vətənpərvərlik ruhunu aşılamaq, qədim adət-ənənələrimizi yaşatmaqdır.

Sonra tədbirdə mahnılar ifa edilib, vətənpərvərlik mövzusunda şeirlər səsləndirilib.

Folklor klubundakı özfəaliyyət dərnəyinin bir qrup üzvü və kitabxananın bir neçə fəal oxucusu fəxri fərmanla təltif edilib.

# “Sözün sehri” regional televiziya müsabiqəsi

Dahi şair və mütəfəkkir Nizami Gəncəvinin anadan olmasının 880 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, 2021-ci ilin ”Nizami Gəncəvi İli” elan edilməsi ilə əlaqədar regionlardakı mədəniyyət müəssisələrinin silsilə layihə və tədbirləri davam edir.




Ağdaş Regional Mədəniyyət İdarəsinin şəbəkəsinə aid olan Ağdaş, Göyçay, Ucar və Zərdab rayonlarından olan istedadlı qiraətçilərin aşkar olunması və onların bölgələrdə tanıdılması məqsədilə “Sözün sehri” adlı regional televiziya müsabiqəsi keçirilir.

Müsabiqədə iştirak etmək istəyən 14 və daha yüksək yaş kateqoriyasında bədii qiraət həvəskarları Ağdaş Regional Mədəniyyət İdarəsinə müraciət edə bilərlər.

Ünvan: Ağdaş şəhəri, Heydər Əliyev prospekti, 72
Facebook: https://www.facebook.com/agdashregionalmedeniyyetidaresi
E-mail: aghdash.mct@gmail.com
Telefon: (020) 23 5 56 19; (050) 323 90 47

# Özbəkistanlı şairənin “44 gün” kitabının Gədəbəydə təqdimatı

Gədəbəy rayon Heydər Əliyev Mərkəzində özbəkistanlı şairə, ”Kitab dünyası” qəzetinin baş redaktoru, Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü Xasiyyət Rüstəmin İkinci Qarabağ müharibəsinə həsr olunan ”44 gün” kitabının təqdimatı keçirilib.

Tədbirdə Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı İbrahim Mustafayev, rayon ziyalıları, Milli QHT Forumu idarə heyətinin üzvü, şair-türkoloq Əkbər Qoşalı, Dünya Gənc Türk Yazarlar Birliyinin sədri İntiqam Yaşar və başqa qonaqlar iştirak ediblər. Çıxış edənlər qardaş özbək xalqının tanınmış yazarının Azərbaycanın Vətən müharibəsinə həsr etdiyi kitabın təqdimatının rayonda keçirilməsinin əhəmiyyətini vurğulayıb, müəllifə uğurlar arzulayıblar.

Qeyd edək ki, Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin maliyyə dəstəyi ilə işıq üzü görən kitabda müəllifin “Adı Lalə idi o qızın...” poeması da yer alıb.

Xasiyyət Rüstəmova kitabın təqdimatının təşkilinə, ona göstərilən diqqətə görə minnətdarlığını bildirib. Sonda müəllifə xatirə hədiyyələri təqdim edilib.

Xatırladaq ki, bundan öncə özbəkistanlı şairənin kitabının Sumqayıtda da təqdimatı keçirilmişdi.

# Goranboyda Qafqazın qədim unikal abidəsi aşkarlanıb

## Azərbaycan və Fransa arxeoloqlarının birgə ekspedisiyası

AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutu və Fransa Milli Elmi Araşdırmalar Mərkəzi arasında anlaşma memorandumuna əsasən, Goranboy rayonunun Qaraçinar kəndi ərazisində arxeoloji tədqiqatlara başlanılıb.

Bu barədə AMEA-dan bildirilib. Qeyd olunub ki, arxeoloqlar Müzəffər Hüseynov, Bəxtiyar Cəlilov və onların fransalı həmkarı Culio Palumbinin rəhbərlik etdiyi beynəlxalq arxeoloji ekspedisiyanın apardığı qazıntıların ilkin nəticələrinə görə, Qaraçinar abidəsi Eneolit, İlk Tunc, Antik və Orta əsrlər dövrlərini əhatə edir.

Yaşayış yerində aparılan araşdırmalar zamanı Kür-Araz mədəniyyətinin mənşəyi və inkişaf dinamikası haqqında yeni fikirlər söyləmək mümkün olub. Qazıntılar zamanı aşkarlanan maddi mədəniyyət nümunələri Fransa və İtaliyadan olan mütəxəssislərin də diqqətini çəkib.

Qaraçinar qədim yaşayış yerində aparılan qazıntılarda iştirak etmək üçün İtaliyadan dəvət olunan topoqraf mütəxəssis tərəfindən abidənin geniş topoplanı və qazıntı sahəsinin 3D görüntüləri hazırlanıb. Abidədə aparılan tədqiqatlar zamanı müasir elmin tələblərinə uyğun üsullardan istifadə edilib, fotoqrammetrik çəkilişlər aparılıb və beynəlxalq laboratoriyalarda analiz etmək üçün müxtəlif artefaktlardan nümunələr götürülüb.

# Bacısının sənət şöhrəti onu həmişəlik teatra bağladı



Azərbaycan teatr rəssamlığında özünəməxsus dəst-xətt nümayiş etdirən fırça ustaları arasında tanınmış qrafik, Əməkdar rəssam Ənvər Almaszadənin də adı ehtiramla çəkilir. Onun tərcümeyi-halının sənətlə zənginləşməsində özündən üç yaş böyük bacısı, Azərbaycanın ilk balerinası, baletmeyster, pedaqoq, SSRİ Xalq artisti Qəmər Almaszadənin xüsusi rolu olub.

Ənvər Hacağa oğlu Almaszadə 27 avqust 1918-ci ildə Bakı şəhərində pinəçi ailəsində anadan olub. Dindar olan atası sənətə isti münasibət göstərməsə də, Ənvərdə təsviri sənətə maraq getdikcə gizlədilməz səviyyədə özünü büruzə verirdi. Üstəlik sonralar Azərbaycan baletinin parlaq ulduzuna çevrilən bacısı Qəmər Almaszadənin ölkəmizin hüdudlarını aşan sənət sorağı onun rəssamlıq üzrə təhsil almasına, bu sahədə uğurlara doğru addımlamasına vəsilə olur.

Ənvər orta məktəbi bitirdikdən sonra Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsil alır. 1937-ci ildə bacısının balerina kimi fəaliyyət göstərdiyi Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında rəssam olaraq işə başlayır. 55 il (1937-1992) çalışdığı bu teatrda Üzeyir Hacıbəylinin "Arşın mal alan", "O olmasın, bu olsun" operettalarına, "Leyli və Məcnun" operasına, Soltan Hacıbəyovun "Gülşən", Əfrasiyab Bədəlbəylinin "Qız qalası" baletlərinə, Fikrət Əmirovun "Sevil" operasına və digər əsərlərə yüksək sənətkarlıq məziyyətləri ilə səciyyələnən bədii tərtibatlar verir.

Ənvər Almaszadə Qara Qarayevin "Yeddi gözəl" baletinin ilk tamaşasına (1952) da tərtibat verib. Qeyd edək ki, həmin tamaşanın məsləhətçisi və ayrı-ayrı rəqslərin quruluşçusu isə Qəmər Almaszadə olub. Ümumiyyətlə, bu bacı-qardaşın sənət birgəliyi həmişə uğurlu olub. Onlar birgə qastrol səfərlərində olub, sənət uğurlarına birlikdə seviniblər. Q.Qarayevin "Leyli və Məcnun" baletinin ilk tamaşasının (1969) da tərtibatçı rəssamı Ənvər Almaszadə idi. Sənətkar işlədiyi səhnə eskizlərinin əsərin ideya-məzmun və əhatə etdiyi dövrlə ahəngdarlığına xüsusi diqqət yetirib və bu mənada həmişə istəyinə nail olub. O, eyni zamanda bir sıra tamaşaların bədii tərtibatı ilə yanaşı, geyim eskizlərini də hazırlayıb.


"O olmasın, bu olsun" tamaşasının səhnə eskizi (1958)

Yaradıcılığı yüksək qiymətləndirilən sənətkar 1964-cü ildə Azərbaycan SSR-in "Əməkdar rəssam"ı fəxri adı ilə təltif olunub. Ənvər Almaszadə 6 mart 2007-ci ildə Bakı şəhərində vəfat edib. Rəssamın oğlu Çingiz Almaszadə bəstəkar olub, uzun illər S.Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrında musiqi tərtibatçısı işləyib.

2014-cü ildə Bakıdakı "Qalereya-1969" salonunda teatr rəssamlarının əsərlərindən ibarət "Azərbaycan teatrı - 140" mövzusunda sərgidə Ənvər Almaszadənin də səhnə eskizləri nümayiş olunub.

**F.YUNİSLİ**

# Azərbaycan muğam sənətinə həsr olunmuş qısametrajlı film

Beynəlxalq Muğam Mərkəzi tərəfindən 26 avqust – "Azərbaycan muğamı günü" münasibətilə qısametrajlı film hazırlanıb.



Filmdə Azərbaycan muğam sənətinin inkişafı, UNESCO tərəfindən dünya qeyri-maddi irsinin bəşəri əhəmiyyətə malik sərvətləri sırasına daxil edilməsi, ölkəmizdə muğam sənətinə göstərilən diqqət əksini tapıb.

Ekran əsərində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və İCESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın muğam sənətinin inkişafına göstərdiyi qayğıya geniş yer verilib. Həmçinin tanınmış muğam ifaçılarımızın bu sənətlə bağlı fikirləri yer alıb.

Beynəlxalq Muğam Mərkəzinin sosial şəbəkə səhifələrində paylaşılan filmdə ölkəmizdə keçirilmiş muğam müsabiqələri haqqında videomateriallardan da istifadə edilib.

Filmin ideya müəllifi Beynəlxalq Muğam Mərkəzinin direktoru, Xalq artisti Murad Hüseynov, quruluşçu rejissoru və ssenari müəllifi İlqar Əkbər, operatoru Fuad Təhməzli, redaktoru Lalə Azəridir.

# Ağ-qara neqativlərin təəssüratı



Maddi mədəniyyət nümunələrinin saxlanc yeri olan muzeylər kimi vacib məkanlardan biri də arxivlərdir. Onlar müxtəlif dövr və proseslərin ən yaxşı və dəqiq təhlilçisi, təsvirçisidir. Dövlətin keçdiyi inkişaf yolu, tarixi, yaxın-uzaq keçmişinin bütünlükdə yaddaş yeridir arxivlər.

Ölkəmizdə ötən əsrin 20-30-cu illərində təşəkkül tapan və ən müxtəlif sahələri əhatə etməklə geniş profilli arxivlərdən biri də Milli Arxiv İdarəsi tərkibindəki Azərbaycan Dövlət Foto və Kino Sənədləri Arxividir. Bir müddət Mərkəzi Dövlət Oktyabr İnqilabı Arxivinin Fotosənədlər şöbəsi kimi fəaliyyət göstərib, 1943-cü ildə Azərbaycan SSR Mərkəzi Dövlət Kinofotofono Sənədləri Arxivi kimi ayrıca fəaliyyət göstərməyə başlayıb.

1968-ci ildə Mərkəzi Dövlət Səs Yazıları Arxivinin yaradılması ilə əlaqədar fonosənədlər həmin arxivə verilib, bu arxivin isə adı dəyişdirilərək Azərbaycan SSR Mərkəzi Dövlət Kino-Foto Sənədləri Arxivi olub. 1994-cü ildən isə Azərbaycan Respublikası Dövlət Kino və Foto Sənədləri Arxivi (ARDKFSA) adlandırılıb. Bura həm də kino-foto sənədləri ilə iş üzrə elmi-metodik mərkəzdir.

Hazırda 20 mindən çox kino, 342 mindən çox foto sənədin mühafizə edildiyi unikal məkanın fəaliyyəti ilə tanış olmaq imkanı qazandıq.

Arxivin direktor müavini Nazim Əhmədlinin müşayiətində laboratoriyaları, saxlama kameralarını, müşahidəsinə xüsusi icazə verilən nadir foto nümunələrini, ümumən böyük diqqət və xüsusi peşəkarlıq tələb edən iş prosesi ilə yaxından tanış olduq.

Nazim Əhmədli bizimlə söhbətində arxiv işinin təşkili, mühafizə qaydaları, yeni daxil olan materiallar üzərində laborator müayinə kimi ən müxtəlif istiqamətlərə nəzər saldı, ümumən arxiv fondları və onların gələcək nəsillər üçün daşıdığı önəm haqqında vacib məqamlara da toxundu.

– Arxivin sırf mədəniyyət, incəsənət sahələrilə bağlı fondları ilə maraqlandığınızı nəzərə alaraq daha çox bu istiqamətə nəzər salacağam. Obrazlı desək, ümumilikdə bu arxiv Azərbaycanın ictimai-siyasi, iqtisadi və mədəni həyatında baş vermiş hadisələri əks etdirən topludur, real təsvirdir. Bura dövlət idarə və təşkilatlarının fəaliyyəti nəticəsində yaradılmış arxiv fondunun kino və foto sənədləri, həmçinin görkəmli dövlət, ictimai, elm və mədəniyyət xadimlərinin, Azərbaycanda inqilabi-demokratik hərəkatın, II Dünya müharibəsi, Qarabağ müharibələri iştirakçılarının şəxsi kino-foto sənədləri daxildir.

*– Nazim müəllim, qısa təqdimatınızdan da göründüyü kimi, arxiv fondunuz zəngindir və gün-gündən yenilənir. Başlayaq konkret olaraq fəaliyyət istiqamətinizdən. Bir az da müqayisə aparaq. Çünki kino sənədləri ilə bağlı müvafiq fond da var. Sizin fondda nələr saxlanılır?*

– Dövlətin arxiv fondu haqqında qanununa uyğun olaraq qurulan arxiv fondu özlüyündə ölkə tarixinin mühüm, əsas hissəsini əhatə edir. Bu lentlər xüsusi temperatur şəraitində saxlanılır. Onların uzun müddət qalması üçün bütün laborator işlər sistemli aparılır. Bunlar dövlət əmlakıdır və gələcək nəsillərə mirasımızdır.

*– Kino sənədləri hissəsinə gələk: Dövlət Film Fondu nəyi saxlayır, siz hansı kinolentləri mühafizə edirsiniz? Bu zaman konkret təsnifat mexanizmi işə düşür, yoxsa adi bölgü aparılır?*

"Arxivə sənədlərin qəbulu prosesi könüllülük əsasında olur. Təəssüf ki, bəzi dövlət qurumları, bir sıra yaradıcı təşkilatlar bu prosesi uzadır, yubadır, nəticə etibarilə sənədləri bizə vermirlər. Səbəb isə laqeydlikdir. Odur ki, biz bəzən uzun-uzadı müraciət etməli, izah verməli oluruq..."

– Film Fondda əsasən bədii, bizdə isə sənədli filmlər, respublikamızın tarixinə aid sənədli süjetlər saxlanılır. Şəxsi fondlar da var ki, onlarda da məşhur insanlarımız – yazıçılar, şairlər, elm, mədəniyyət, dövlət xadimləri, sənət adamları ilə bağlı süjetlər, fotosənədlər saxlanılır. Dövlətə aid olan lent yazıları, filmlər, müxtəlif kadrlar da bizim fondlarımızda qorunur.

*– Təbii ki, foto və kinolentlər zamanla istifadəyə yarasız ola bilər və onların keyfiyyətinin itməməsi vacib sualdır. Bu istiqamətdə hansı işlər görülür?*

– Bizdə foto və kino neqativlər hər biri ayrı-ayrı saxlanc yerlərində qorunur və müvafiq nəzarət mexanizmi var. Kinosənədlər saxlanan mühafizəxanada lentlər, sığorta fondlarımız var və onlardan istifadə edirik. Şüşə əsilli və başqa neqativlərimiz, nadir lentlərimiz də var. Hamısının saxlanc yeri ayrıdır və onlar xüsusi şəraitdə mühafizə olunur. Vaxtaşırı saxlanc yerlərindəki kino sənədləri vizual müşahidə olunur. İstifadəçilər tərəfindən qaytarılan lentlər qəbul ediləndən sonra yoxlanılır, zədələnən hissələri bərpa edilir. Uzun müddət saxlanılan lentləri təmizləyirik. Onlar laboratoriya şəraitində təmizlənir, üzü köçürülür. Bu isə uzun zaman və zərgər dəqiqliyi tələb edir.

*– Bu iş ənənəvi vasitələrlə aparılır, yoxsa müasir texnoloji vasitələr tətbiq olunur?*

– Ən son texnologiyalar olmasa da, bizdə müasir, hələ ki, tələbi ödəyən, işimizi axsatmayan avadanlıqlar var. Müasir aparaturalara gəlincə, bu da dövlətimizin dəstəyi ilə sistemli olaraq yenilənir. Gələcəkdə arxiv üçün yeni texniki vasitələrin alınması da nəzərdə tutulub. Çünki əlimizdəki vasitələr artıq köhnəlmək üzrədir. Bundan başqa, elmi məlumat aparatının qurulması, müəyyən nümunələrin əlçatan olması üçün elektron qaydada sistemləşdirilməsinə də başlamaq istəyirik.

*– Statistika yenilənirmi?*


Bakı məktəbində dərs (1919)

– Bəli, bu, demək olar ki, gündəlik dəyişə bilir.

*– Hansı qurumlarla işləyirsiniz və nümunələr arxivə hansı prinsiplər əsasında götürülür?*

– Dövlət sektorunda olan müəssisə və təşkilatlar bizə vaxtaşırı o sənədləri göndərirlər. Dövlətə aid olan foto və kino sənədləri, üstəlik şəxsi sənədlər də ayrı-ayrı şəxslər tərəfindən təqdim olunur. Dövlətə aid sənədlər birmənalı olaraq qəbul olunsa da, fərdi sənədlərə baxılır, seçilir, ekspertiza olunur və yararlılığı müəyyən edildikdən sonra fondlaşdırılır.

*– Fondlardan istifadə, yeni tədqiqatçıların materiallardan bəhrələnməsi üçün əlverişli mühit yaradılıb?*

– Dövlət təşkilatları rəsmi, fərdi şəxslər isə ərizələrlə müraciət edərək istədikləri nümunədən bizim arxivin oxu zalında istifadə edə bilirlər. Bundan başqa, bizim "ASAN Xidmət" mərkəzlərində nümayəndəmiz var və o xidmət vasitəsilə də müraciətlər cavablandırılır. Faiz etibarilə daha çox o bazadan məlumatlar əldə olunur.

*– İstifadə zamanı baş verə biləcək hər hansı xəta nəzərə alınıbmı?*

– Bəli, fondlarda nümunələrin orijinalı, eləcə də neqativi, pozitivi qorunur. Onların hər biri sığortalanıb. Bizim sığorta fondumuz da var və istifadəçilərə təlimat verilir.

*– Bayaqdan danışırsınız və mənim nəzərlərim istər-istəməz masanız üzərindəki ağ-qara fotolarda, onların protokollarına ilişir. Bəlkə söhbətimizi praktiki nümayişlərlə davam etdirək.*

– Əlbəttə, bilirəm ki, oxucularımız üçün də məhz bu nümunələr, ümumən arxiv fondu maraqlıdır. Söhbət gördüyünüz bu materiallardan gedirsə, bunlar ötən əsrin 40-cı illərinin Bakısından, müharibə dövrünün şəhərindən, gündəlik həyatından nümunələrdir.

*– Maraqlıdır ki, fotokartların əksəriyyəti hələ də rus dilindədir. Məsələn, Bakı Sabun Fabrikinin istehsalat prosesini göstərən konkret bu nümunələr...*

– Fondda minlərlə belə nümunə var və biz fotolar əks olunan kartları Azərbaycan dilinə çevirir və elmi məlumat bazasına yerləşdiririk.

*– Sizdə qorunan ən qədim foto və kino kadrı mənə və oxucularımıza çox maraqlıdır.*

– Ən köhnə kadrlar daha çox 20-ci illərə, yəni ölkəmizdə foto və kino aparatlarının yayılmağa başladığı dövrlərə aiddir. Amma çəkilən və bizə çatan fotolar arasında nadir nümunələr də var. Məsələn, Bakının tarixinə, şəhərin ümumi görünüşünə, ayrı-ayrı binalara, küçələrə (1861-1895-ci illər), XIX əsrin sonu – XX əsrin əvvəlində neft sənayesinin inkişaf tarixinə, neftin çıxarılması üsullarına, neft emal edən zavodlara, mədənlərdəki yanğınlara aid fotoşəkillər ən ilkin sənədlərdir.

Neft istehsalının inkişafı haqqındakı sənədlərin əksəriyyəti Bakı şəhərində Nobel qardaşları şirkətinin fəaliyyəti barədədir. Həmin sənədlərə şirkətin təsisçilərinin, şirkətə məxsus zavod, mədən əməkdaşlarının portretləri, neftin daşınması üçün dəmiryolu nəqliyyatı vasitələri, fəhlələrin yaşayışını özündə əks etdirən fotoşəkillər aiddir.

Fotoların bir hissəsində isə Azərbaycanda milli burjuaziyanın yaradılması və inkişafı əksini tapıb. Həmin sənədlər arasında neft sahibkarları, Bakı milyonçusu H.Z.Tağıyevin evlərinin, Mərdəkandakı bağının, onun vəsaiti ilə tikilmiş teatrın, məktəblərin, dəyirmanın, öz ailəsi ilə, Bakı milyonçuları ilə birlikdə fərdi fotoları da var. Əjdər bəy, Bibiheybət, Təzəpir məscidləri, alman kirxası, katolik kilsəsi kimi dini ocaqlar haqqındakı foto və kino sənədləri də mövcuddur və onlar tədqiqatçıların ən çox müraciət etdikləri materiallardır. 30-cu illərdə Bibiheybət məscidinin sökülməsini əks etdirən kinoxronikadakı kadrlar, Aleksandr Nevski kilsəsinin sökülməsini təsvir edən fotolar nadir sənədlərdir.

*– Xalq Cümhuriyyətinin tarixinə aid nümunələrlə tanış ola bilərik? Bildiyim qədər, onlar da sizin arxivdə qorunur.*

– Onlar xüsusi kameralardadır və təəssüf ki, hazırda nümayiş etdirə bilməyəcəyik. Məlumat üçün deyim ki, bunlar Cümhuriyyət Milli Şurasının sədri M.Ə.Rəsulzadənin, Nazirlər Şurasının sədrləri F.Xoyskinin, N.Yusifbəylinin, maliyyə naziri Ə.Həsənovun, xarici işlər naziri M.Hacinskinin, daxili işlər naziri M.Y.Cəfərovun, Parlament sədrinin müavini H.Ağayevin və başqalarının portretləridir. Buraya Xalq Cümhuriyyəti Nazirlər Şurasının iclasları, Parlament binası, həmçinin Azərbaycan Milli Ordusunun yaradılmasını əks etdirən fotolar da daxildir. Həmin illərin sənədləri arasında Cümhuriyyət Ordusu generallarının, zabit və əsgərlərinin, hökumət tərəfindən Fransa, Almaniya, İngiltərə, İtaliya, Türkiyə və başqa ölkələrə təhsil almağa göndərilən tələbələrin şəkilləri də var.


Xalq Cümhuriyyətinin zabitləri

*– Mədəniyyət sahəsi, sənət adamları, yaradıcı təşkilatlarla bağlı bölmələriniz də var. Mədəniyyət Nazirliyi sistemindəki müəssisələr, xüsusən də teatr-konsert müəssisələrinin fondları necə, zəngindir?*

– Bəli, qənaətbəxşdir. Çünki nazirliklə sistemli və məhsuldar əməkdaşlığımız var və bunun nəticəsidir ki, gördüyünüz zəngin fond yaranıb. Kino təşkilatları, teatrlar, konsert müəssisələri, ayrı-ayrı mədəniyyət, musiqi, kino xadimlərinin unikal fotoları bizdə qorunur. Arxivdə respublikanın kinematoqrafiya tarixindən, teatrının təşəkkülündən, musiqi kollektivlərinin işindən bəhs edən kino və foto sənədlər də mühafizə edilir.

*– Kataloqlarda müxtəlif illərin qastrol səfərləri, konsertləri, premyeraları ilə bağlı maraqlı fotolar diqqətimi cəlb edir. Bunlar fərdi yığımla toplanıb, yoxsa müəssisələr təqdim ediblər?*

– Hər iki yolla. Onu da deyim ki, bizdə şəxsi fondlarda on minlərlə fotosənədlər mühafizə edilir. 30-cu illərdən sonrakı dövrlərə aid sənədlər daha çoxdur. Bu sırada fərdi qaydada təqdim edilən xeyli maraqlı nümunə də var.

*– Yeri gəlmişkən, fondun zənginləşdirilməsi ilə bağlı şəxsi təşəbbüsləriniz necə, olur?*

– Təbii ki. Biz hansısa təşkilatda, fərdi şəxsdə hər hansı video və foto sənədin, bizim üçün qiymətli materialın olması ilə bağlı məlumat alırıqsa, vaxt itirmədən onu əldə etmək üçün müraciət edirik. Təbii ki, proses könüllülük əsasında olur. Təəssüf ki, bəzi dövlət qurumları, bir sıra yaradıcı təşkilatlar bu prosesi uzadır, yubadır, nəticə etibarilə sənədləri bizə vermirlər. Səbəb isə sadəcə, laqeydlikdir. Odur ki, biz bəzən uzun-uzadı müraciət etməli, izah verməli oluruq. Dərin təəssüf doğuran məqamlarla da rastlaşırıq. Fondlaşdırmaq istədiyimiz mədəniyyət, ədəbiyyat xadimlərindən bəzən ya sərt sözlər eşidirik, ya da birmənalı imtina. Aralarında arxivə sənədləri pul müqabilində verə biləcəklərini deyənlər də olur. Bu sahədə maarifləndirmə işinə də ehtiyac var və arzu edərdim ki, elə sizin qəzet vasitəsi ilə də insanlar bu işin nə qədər önəmli olduğunu bir daha nəzərdən keçirsinlər.

*– Profilinə uyğun olmayaraq foto və kino sənədləri saxlayan qurumlar da var. Məsələn, bir dəyərli sənətçimiz dünyasını dəyişir və onun arxivə aid sənədləri qeyri-profilli qurumda qalır. Bu kimi hallar tez-tez olurmu və olursa niyə konkret bölgü yoxdur? Yəni digər qurumlarla əlaqələriniz yetərli səviyyədədirmi? Müşahidələr göstərir ki, bu elə deyil.*

– Bu mövzu bizim yaralı yerimizdir. Dəfələrlə bu barədə müraciətlər də etmişik. Xüsusən muzeylərə. Onlar unikal, böyük dəyəri olan fotoları saxlanma şəraitləri olmadığı halda ekspozisiyaya daxil edir, fondlarında saxlayırlar. Əslində, onların hamısı məhz burada – bu arxiv fondunda saxlanılmalı, surətləri nümayişə çıxmalıdır. Həmin surətləri yüksək peşəkarlıqla köçürən mütəxəssislərimiz də var. Bu məsələ kinolentlərə də aiddir.

Qarşılıqlı əlaqələrə gəlincə, əlaqələrimiz var və biz istənilən təşəbbüsə müsbət yanaşır, bizə müraciət edən bütün qurumlara müsbət cavab veririk. Arxivin saytı da var və mütəmadi keçirilən tədbirlər, sərgilər orada geniş işıqlandırılır. Dövlət tədbirlərinin də çoxunun foto və videoları bizdən götürülür.

...Arxivdə qorunan materiallarla tanış olarkən istər-istəməz sən təsvir olunan dövrə, baş verən hadisəyə, prosesə, aradakı uzun zaman aşırımını keçərək, qoşulur və sanki özünü o zamanda hiss edirsən. Fotolara baxdıqca – 20-ci illərə aid sabunbişirmədən konservləşdirməyə, açıq hava kinoteatrlarından tarlalardakı konsert və tamaşalaradək – bu təsvirlər səni təsir dairəsinə salır və istər-istəməz zaman burulğanına düşmüş olursan. Bundan sonra bir müddət zaman tunelindən çıxa bilmirsən, ya da istəmirsən. Bir az nostalgiya yükünü azaltmaq, bir az da keçmişlə gələcək arasındakı xəyali rabitəni qurmaq üçün...

**Həmidə NİZAMİQIZI**

№64 (1841)
27 avqust 2021
www.medeniyyet.az

# Tahir əfəndi



Onunla bağlı doğma, kövrək, məhrəm xatirələrimə çox sevdiyi və dəfələrlə sitatlar gətirdiyi alman filosofu Fridrix Nitsşenin "Azadlıq nədir? Heç kimin qarşısında utanmamaq" sözləri ilə yol açmaq, elə onun təbirincə desəm, ayaq vermək istədim.

Lap çoxdanın söhbətidir, "Mədəniyyət" qəzetində işə başlamağımın ilk həftəsinin. "Azərbaycan" nəşriyyatının 2-ci mərtəbəsində baş redaktorun otağı ilə üz-üzə müxbirlər və digər əməkdaşların oturduğu otaq vardı. Zatən redaksiya cəmi üç otaqdan ibarət idi. Mənə də o otaqda, onunla üzbəüz masada yer verdilər. Baş redaktor məni əməkdaşlara təqdim etdi. "Hələ sınaq müddətindədir, özünü doğrultsa, işləyəcək. Cavandı da, yol göstərin, yazı-pozusuna da şərait yaradın" deyib çıxdı.

Baş redaktorun təqdimatı zamanı nəzərlərim onda dayanmışdı. Çünki heç nəyə məhəl qoymadan qarşısındakı kağızlarda nə isə qeydlər edirdi. Masasında saralmış qəzetlər qalaqlanmışdı. Masaüstü kağız təqvim də ötən illərə aid idi. 3-4 qələm və üstü yazılı disketlər əsl işgüzarlıq ab-havası yaradırdı. Düzü, pərt oldum. Qalın eynəkli, mavi köynəkli arıq, bəyaz saçlı kişiyə bərk hirsləndim də.

Hamıdan çox məni darıxdıran səssizlik içində yerimə keçdim, aşırma çantamı köhnəliyində küskün görünən kompüterin yanına qoydum. Masadakı şeir kitabçasını götürüb vərəqlədim. Həmin dövrün ortayaşlı, lakin yeniyetmə oğlan ruhlu şairinin əttökən şeirləri idi. Kitabı kənara qoyub kompüterin düyməsini basdım. Bayaqdan səssizliyə qərq olmuş otaqda vıyıltı qopdu. Bu əcaib səs otaqdakı kiçik masada elektrik çaydanının "zümzümə"sini də eşidilməz etdi. Həmin eynəkli kişi yalnız bu zaman mənə baxıb gülümsündü. Əslində, bu gülümsəmədə "Ay uşaq, sakit dur, fikrimi dağıtma" kimi ehtiva da var idi. Amma mən "buna da şükür" deyirmiş kimi gülümsündüm. Sonra cəld və kor-peşman düyməni yenidən sıxıb kompüteri söndürdüm. Bu dəm çaydan köməyimə yetdi. Pıqqıldayıb daşdı. Yerimdən dik atılıb onu cərəyandan ayırdım. Eynəkli kişi ağır-ağır masasından qalxıb, çaydana tərəf getdi. Fincanını doldurub masasına qayıtdı.

Bir-iki qurtum içəndən sonra "Hə, əfəndi, indi gəl tanış olaq" dedi. Uşaq kimi sevindim. Bunu hiss edib qəribə əda ilə "Xoş gəlmisən, qız. Bəndəniz Tahir Abbaslı, bəs sən" sualını verdi. Beləcə, eynəkli adamla ilk və qısa dialoqum özümü təqdimatla bitdi. Hə, adımı kimin qoyduğunu da soruşdu, Həmidə xanım Məmmədquluzadənin şərəfinə verilməsindən duyduğu məmnunluğunu da dilə gətirdi. Doğrusu, bu yaşıma qədər geniş yayılmayan bu adı mənə verən əmimi qınadığıma görə peşman oldum.

Mənim Tahir Abbaslı ilə tanışlığım belə başladı və illər ötdükcə sərt görünüşlü kövrək adama dərindən bağlandım. Səbəb isə çox sadə idi: Tahir müəllim, daha doğrusu, Tahir əfəndi sözü ilə əməli arasında heç vaxt fərq qoymadı. Heç vaxt, heç bir situasiyada onun əqidəsindən, düşüncəsindən, prinsiplərindən keçdiyini görmədim. Heç vaxt haqsız tərəf olmadı, haqsızlığa susmadı...

Onu tanıdığım illər ərzində, onunla otaq yoldaşı olduğum zamanlarda əsl dərd ortağı, məsləhətçi, yolgöstərən qazandım. Tahir müəllim yuxarıda misal çəkdiyim sitat kimi adam idi: daim azad, hər zaman qalib.

Onu tanımaq mənə "Əfəndi, boş ver, sən doğru yolunla get", "Həyatdı deyib keçmə, həyatının cilovunu öz əlində saxla", "Taleyindən gileylənməkdənsə onu dəyişmək üçün çapala", "Bala, qanan qanmayana bir pay borcludur", "Yazmaq ürəyi boşaltmaqdı, kağız-kuğuzu doldurmaq yox" kimi dəyərli və unudulmaz, yerində öyüdlər qazandırdı. Tahir Abbaslını tanımaq məni "Sözü əlində xəmir kimi yoğur, istədiyin hala gətir. Gör nə dadlı çörək çıxacaq", "Əfəndi, sözdür də, sən onu necə istəsən, işlədə bilərsən. Amma gərək ehtiyatlı olasan, bir də görərsən, bir artıq söz bir fikri bada verər", "Yaxşı jurnalist ürəyi ilə yazmalıdır, yoxsa onu oxuyanın bağrı çatlar" və ən əsası "Yazar konveyer olarsa, batar. Elə yazı yazmağa nə var e. Bax bu qələmi tullasam, gedib öz-özünə gündə o yazıdan beşini yazar" kimi qiymətli öyüdlərlə aydınlatdı.

Tahir müəllim mənim jurnalistika üzrə müəllimim, yorulmaz tənqidçim, bezməyən oxucum idi. Ondan "Əhsən, əla yazmısan" sözlərini eşidəndə Allah bilir göyün neçənci qatında olurdum. Bizi birləşdirən xeyli dəyərlər də var idi. Onların arasında Üzeyir Hacıbəyli sevgisi, Fikrət Əmirov bağlılığı, Fatma Mehrəliyeva avazı ... gözlə görünənlər idi.

Sonralar, çox sonralar redaksiyamız ünvanını dəyişdi, biz daha geniş və gözəl otaqlara köçdük. Bir müddət yenə də eyni otaqda oturduq. Uzun yazı prosesinin fasilələrində, yaxud hər hansı məsələ ilə bağlı ya o, ya da mən gərgin olanda dərdləşdik. Ən ağır sual qarşısında da mütləq bir cavabı, nikbin bir məsləhəti var idi. Otaqlarımız ayrılanda da biz söhbətləşməyə, "Kəsmə şikəstə"ni, "Arazbarı"nı, "Karvan"ı, "Kürd ovşarı"nı dinləməyə vaxt tapırdıq.

Tahir əfəndi, sizə deməyə sözüm, əslində, çox idi. Amma xasiyyətimi bilirsiz, şirindil adam deyiləm, heç bəzəkli danışmağı da bacarmıram. Deyəsən, elə ən çox bu şakərimi bəyənirdiz. Amma çox istərdim, sizi nə qədər çox istədiyimi biləsiz.

İndi oturub sizin publisistikamızın nəhəngi olmağınız, dilimizi mükəmməl bilməyiniz, şəxsiyyətiniz, əqidəniz, böyüklüyünüz, peşəkarlığınız barədə nə isə yazmağım artıqdır. Bilirsiz niyə? Çünki siz, hər zaman olduğu kimi, söz üzərində də qalib oldunuz və məhz buna görə bizlər sizə ustad dedik, həsəd apardıq, heyran olduq. Düzünü deyəcəm, qəzetimizdə daha çox sizin yazdıqlarınızı oxuyurdum. Sizin birbaşa və sətiraltı fikirlərinizi tutmaq üçün bəzən bir abzas üzərində dəqiqələrlə dayanırdım. Hətta arada yanınıza gəlib uşaq sadəlövhlüyü ilə suallar da verirdim.

Əziz Tahir əfəndi, sizin yeriniz publisistikamızda, jurnalistikamızda, hələ də yaşamaq uğrunda mücadilə aparan, onlayn media, televiziyalara meydan oxuyan qəzetçilikdə daim görünəcək.

Birlirsiz nəyə sevinirəm? Sizinlə işə sonuncu gəlişinizdə uzun-uzadı dərdləşə bilməyimə, bu dəfə məhz sizi dinləməyimə, Dövlət Film Fondunun həyətindəki skamyalarda üz-üzə oturub uzaq-yaxın keçmişə boylanmağımıza sevinirəm. Sevinirəm ki, bu dəfə sizin dinlənilmək ehtiyacınızda yanınızda oldum, üzünüzü güldürənədək söhbətləşdik.

Bu yazıdan nə peşəkar yanaşma, nə həmkar (cəsarətimi üzrlü sayın) analizi ummayın. Bu, mənim Tahir Abbaslı kimi böyük, ağır, təsvirsiz hüznümün sözləridir. Təbii ki, yazıya köçə bilənləri. Tahir Abbaslı müəllimim, ustadım, əxlaqı, vicdanı, təəssübü ilə doğmam, əzizim idi.

Sizi tanımaq, sizinlə bir kollektivdə çalışmaq, sizinlə fikir mübadiləsi etmək mənim üçün şərəf idi, şərəfli kişi. Sizi Nitsşedən dəfələrlə dediyiniz "Özünün əldə edə biləcəyin haqqın başqaları tərəfindən sənə hədiyyə edilməsinə razı olma" hikmətinin işığında xatırlayacam. Çünki mübarizə, həm də sona qədər əzmlə mübarizə sizin kimi güclü adamların bizlərə ən böyük mirasıdır.

Ruhun şad olsun, əziz Tahir əfəndi. Ömrü mübarizələrdə keçən adamların ruhu daim azad və şad olur...

**Həmidə NİZAMİQIZI**

# Varaq rübab oylağına...

Xəyallanaq "Qırxqız" yaylağına, vaysınaq "İsa bulağı"na, həsrət qalağından çıxıb, qalxaq qeyrət oylağına, "Qaragilə"!...




**Redaksiyadan:** Uzun illər "Mədəniyyət" qəzetində fəaliyyət göstərmiş tanınmış jurnalist, yazıçı-publisist Tahir Abbaslının (25.9.1948 – 18.7.2021) vəfatından qırx gün ötdü. Onun hər yazısı ustad qələmindən çıxmış bənzərsiz nümunə idi. Yoxluğunda qəzetimizdə yazılarının yeri görünür. Bu yazını altı il əvvəl avqustda yazmışdı. Ustad imzasına ehtiram olaraq bir daha oxuyaq...

Sənin məcun Səsini, mərcan sədanı dinləyəndə gözlər bir nöqtəyə dikilə, ağızlar açıla, qaşlar alınlara qaçıla qalır, ay "Qaragilə". Məzmunda qatı, mənada bayatı həyatını incələyəndə isə hisslər sıxıla, duyğular darala, nəfsi-nəzərlər - mahnılarından birindəki "maral"a nisbət, sarala qalır. Yəni, bu dünyada həsrəti-hicrə salxım-salxım, vəsli-yara gilə-gilə, vay "Qaragilə"!...

## Ay "Qaragilə"...

İllərdi məchul və nakam bir "qızılgül"ü əsim-əsim əsdirib, səbrimizi kəsim-kəsim kəsən Kəs. Öz bülbül rübabı ilə xəzan könülləri belə güllləndirən xanım. Xatirələrdə əsasən ozan, hərdən də azan sədaları, kəklik-turac ədaları ilə qalmış başdan-başa tamaşa xatun. Apaydın xalları ilə - dilini yalnız anası bilən lalları da dilləndirən şəkər ləhcəli. Həng-cəngi həvəsləri, dipdiri nəfəslərilə ərənləri selləndirib, ərgənləri tülləndirən, segah-dügahi zəngulələrilə ahılları belə xəyallandırıb bir-birinə bir dönəm də mehrləşdirən incə sənət İncisi. Doğma yurd-yuva hicrindən yana, bu dünyada hər vüsala "heç" söyləmiş, xalqın "aydınlıq" adlandırdığı suyu - Xan Arazı "qanlı" tutub, o dünyaya yana-yana köç eyləmiş cənnət Gözəli. Bu "gəlimli-gedimli dünya"ya 1933-də gəlib, qıpqısa bir mahnı sürəsiycə yaşayıb, "son ucu ölümlü" dünyanı 1983-də tərk etsə də, bu xalqın zövq dəftərinə qızıl hərflərlə yazılmış Səs-səda Qəzəli -

## Rübabə xanım Muradova!...

Mahnılarının birində dönə-dönə təkrarladığın "Səbrü-qərar, səbrü-qərar!" kəlmələrindən də hiss olunur ki, sənin kimi həssaslar, yurd həsrətli kövrəklər çox yaşaya bilməzlər. Amma, hər halda, bu qədər sənət yatırı, səs-avaz qatarı müqabilində əllicə il nəmənəymiş səni Tarı, ay saysız-hesabsız sevərlərinin qısqanılmaz Yarı?!

Amma qoy hələ bu minor məsələ sonraya qalsın; "söz vaxtına çəkər" deyimi baxımından ərz edim ki, Sən o vaxt o dünyaya nə qədər tələsmişdinsə, mən də bu barədə elə o qədər ləngimək qəsdindəyəm, Xanım, hey! Öncə Sənin bu dünyadakı toy-büsati izlərin, bu xalqa bəxş etdiyin dəm-dəsgahi sənət həzlərin barədə.

Bunların isə sayı da çox, sanbalı da.

Misalçün, nərmənazik könüllərə yönlədiyin: "Sənsiz ey şux, mənim xoş güzəranım yoxdur". Qəlbi qəlblərdə muçur-muçur bitirdiyin: "Ağac o-lay-dım, yol-da du-ray-dım, sən gələn yol-lara köl-gə sa-lay-dım". "Ay su gələr arxanova, ay tökülər çarxa-nova" deyə şəlalələnib təsdiqlədiyin "Yar yardan ayrılsa da, ay məhəbbət ölüncə var" və sair.

Hələ özgür muğam, fundamental xalq mahnıları Sarayımıza nəqş etdiyin özəl səs-səda ornamentləri, doğal nəfəs-zəngulə şəbəkələri! Yazılarımın birində mən bunları əsl Ustad nəqqaşələri, xanım XANəndəliyi adlandırmışdım. Bir qədər ərki-əda ilə bunu da qeyd etmişdim ki, kaş mən bu yazını yaz ağzı - Sənin bu dünyaya gəlimin ayında yazıb, muraz-muradıma yetmiş olaydım! Ki, heç olmasa, ifalarındakı alov-atəşlərə, o tayımızda qalan ilk məhəbbətindən yana nisgil siləli həyat dramına, bu dünyadan yarımca əsrlik bir ömürcüklə getməyinin ağrısına qüvvət verən bu qorabişirən istilər tilişkəsinə ilişməyəydim...

Sənin böyük sənət dəyəri əyarına müqabil sözlər, təsvir-təfsirlər tapa bilmədiyim səbəbindən, belə-belə bəhanələr, könlüyarə "Qaragilə"! Sənə butaylı bizlərdən daha bir köynək (və bir göynək...) yaxın Şəhriyar Dədə demişkən, "bir biləydim", bu saat mənim bəzi sözləri yaza-yaza (hərdən də sərxəyalım aza-aza) zümzümələdiyim də ruhuna əyanmı, bağrıparə Qaragilə?! Bu ecazkar muğam, təsnif və nəğmələri zümzümeyi-güllləmələrdən sonrasa, qələm muma dönər, kəlam pərşuma və könül deyər; -

## Nə Sənə sevgi qəhətdi, nə mənə öygü...

Onun qızılgülü əssə də, sənin səbrin kəsilməsin, könül. O, yaxşı bilirdi ki, bu xitabı kimə etdiyini biz də bilirik. O vaxtlar nəinki bütün hal və Rüstəmi-Zal əhlinə, hətta xof-xəfiyyə qövmünə də gün kimi aydın idi ki, o, mahnıda "trafaret" bir Yara xitab etdiyi halda, "mahna"da böyük bir Vətənin digər tən yarısına səslənir. O bu ilahi nəğməni bu tayda - Bakıda oxuyub lentə aldırsa da, "Dərbənd aralı, könlüm yaralı, Bir yar sevmişəm, Qaragilə, - ellər maralı" bəyanını ürəyində məhz Təbrizdən car edirdi. Bu, onun can-qanovuz rəngli səsindəki Təbrizlöyün nisgildən əlavə, milli nəfs-nəfəsindəki məsafə iraqlığından - mənbə-mənsəb uzaqlığından da hiss edilirdi. Bu, coğrafi-relyefi faktlara, ölkəvi-bölgəvi fakturalara da uyğun gəlirdi; axı, bizim (!) sabiq "Dəmirqapı Dərbənd"imiz o tay paytaxtımızdan bu tay paytaxtımıza nisbətdə daha "aralı" idi. Bunları öz xəlqi yanğı-yanıqlı avazı ilə duyuran isə məhz bu o tay-bu taylı ümumazərbaycan Maralı idi!...

Bu nədi belə, görəsən? Sözümdəsovumda nəsə çatmır, deyəsən...

Hə, kəlmələrimdə urvat-urva kəmliyi var. Bütün zərgər könülləri mərmər Səsinə, şirin şivələri şəkkər ləhcənə qataq, ay Qaragilə! Bileysən bunnari niyə deyəm? Əlbət, Sən hələ-həlbət bileysən! Vəli, mənüm söz-sovim, filməsəl, o vaxti şurəvinin fil qulağında yatırtdığı bir qisim-qövmədi, qıza!...

Bu heynidə o zamanlarkı "zəmanə-züü"çülərə xitabən haşa bir haşiyə; heç bilirsiz o cür siyasi çağlarda o cür mətləbləri hiss edib, bu cür hisslər keçirmək nə deməki?!

Bunu eşidib-oxuyuban bilə bilmək müşkül...

...Bir kərə Rübabə xanımı AzTV-nin dəhlizində yaman halda, lap elə oxuduğu təsniflərdən birinin bir misrası ("Ay bu yaman gündə"...) günündə gördüm və dilimdən bir söz çıxdı: "çöldən cağbacağ, içdən çilik-çilik bir termos"... Yan-yörəmdəkilər bu "obraz"ıma təbəssümləndilər, mənsə öz-özümə fikirləşdim: "haçansa bu kumirim haqda yazası olsam, sətirlərimdən qan-qada yağacaq"...

Və bu saat, deyəsən, -

## Elə "o məsələ"...

Düz demirəmmi, ay təkrarsız messo-soprano?!.

Düz deyirəm, amma "bilmədiyimiz" mətləblər də var. Məsələn, Sən öz can-cismində yaylayıb-qışlayan qəmuhəsrətlərini dinləyicilə o cür ahəngizəngulələr, o sayaq bərdaşi-güşələrlə paylaşırdın, həmi? Bəs bu saat Səni səssiz-səmirsiz bir qələmlə ifadə etməyə çalışan bu azarkeş-yazarkeşin neyləsin? Sənin "çarxa-nova"yatmaz duyğularını oxucularıyla necə bölüşsün, ay görkəm-gözəllikcə major, bəxttalecə minor xanım?!.

Amma o bəxt, o tale - şair demiş, çox da sevinməsin, qoy. Axı Sən həm də 38 yaşında Xalq artisti olmusan! Özü də, çoxları kimi tək elə "Azərbaycan SSR" sayalı yox, həm də əsli-fitrəti xalq artisti! Güneyimizin - ad-sanı Şah Xətai şöhrətli Ərdəbilində doğulmusan. Quzeyimizdə - ucqar bir rayon teatrında ikən öz aləm aləminlə bahəm, xoşavaz, bənzərsiz əda və davranışınla böyük aktyorumuz Ələsgər Ələkbərovun gözünə necə aləm görünmüsənsə, dərhal Bakıya dəvət edilmisən. Əvvəl filarmoniyanın, sonra Opera və Balet Teatrının solisti olmusan. Asəf Zeynallı məktəbinin də bəxtəvərlərindən olmusan; uğuruna "Seyid Şuşinski məktəbi" düşüb. Opera teatrında isə naxışın birə-beş gətirib! "Sevimlimiz" çağırılmısan, adın dillərə "Əsl Əsli", "Təkrarsız Xanəndə qız" kimi düşüb, "Ərəbzəngi"nə, "Şahsənəm"inə, "Sənəm"inə bir baxanlar növbəti çıxışlarını səbirsizliklə gözləyiblər. Oxuduğun muğamlar, təsniflər, xalq və bəstəkar mahnıları nəinki statistik heyranların, hətta təbiətən rəqabət-qısqanclıq damarlı sənətdaşların tərəfindən də "möhürbənd"i timsalında qəbul edilib.



Efirlərdə oxuyurdun: "Heydərbaba, yolum səndən kəc oldu, Ömrüm keçdi, gələmmədim, gec oldu"... Məclislərin birindəsə söyləmişdin: "Ay həzərat, bu sözlərin hər biri ürəyimi minbir kərə deşmələr"!...

Və elə bu dəm Haqq dünyaya köçənə qədər yaşadığın qəzavü-qədərlərdən -

## Seçmələr...

Bu barədə düşünüb-daşınırkən haqqında oxuduğum yazılardan birinin gözəl başlığı gəldi xəyal qənşərimə: "Doldur piyaləmi Arazdan mənim..." Sonra Üzeyir bəyin "Arazbarı"sı səsləndi ruhumda... Yox, belə getsə, hələ də hicrançay kimi axan o Arazın söz-sov dalğaları mənim bu vüsalməram yazı-arxıma dov gələcək. Yaxşısı budur, keçim oxuyub-eşitdiyim xatirələrdən bəzi fraqmentlərə...

Kiçik bacısı Tahirə Muradova onu bu xalqın "Səs-səda bacılığı" kimi təsvir-təfsir edirdi: "Bacım özündən, bizdən çox bu xalqı, bu milləti oxuyurdu. Son günlərini də mahnıyla yaşadı. Şəkər xəstəliyi sağlamlığını, görkəmini alsa da, sonacan səsinə dəyə bilmədi. Mənim bu işə məəttəl qaldığımı görüncə, deyərdi, ay qız, atamız tez-tez demirdimi ki, "səs bizdə həm Allah vergisi, həm də ölüncədi"?!.

Bu məqamda onun avaz "maddə"sini də yada salmayaqmı: "Yar yardan ayrılsa da, ay məhəbbət ölüncə var"?!.

Haqq dünyaya köç məqamında bacısına "ayrıca bir vəsiyyət" edir: "O taya yol açılarsa, Ərdəbildən bir ovuc torpaq gətirib səpərsən qəbrim üstünə"...

Bir neçə ildən sonra Ərdəbilə gedən Tahirə xanım nakam bacısının verdiyi nişanələrlə ata-baba ocağını tapır. Şəhərdəki qohum-əqraba, dost-tanış sovet vaxtı köçüb Şimali Azərbaycana getmiş Mirzə Xəlil İşraqinin adını eşitmədikləri bu "şuralı qızının" pişvazına çıxır.

Ovaxtlar Mirzə Xəlil kişinin nələr saydığını söyləmək çətin, fələyin saydığından isə bir-iki "rəqəm": Hələ uşaqkən bu ailə gözəl Ərdəbil dağlarına istirahətə gedir. Yeddi-səkkiz yaşlı Rübabə dağın döşündə bitmiş çiçəklərdən dərdikcə-dərir və nənəsi onlardan birini görəndə içini çəkib, vaysınır: "Ay bala, sən neyləmisən?! Bu "Gümüşxəncər" çiçəyi 20-25 ildən bir açır. Bunu dərən adamın əllərini üç ay sərasər yara basar, tale-qismətdənsə yarımaz"...

Belə, "Qaragilə"...

**Tahir ABBASLI**

## Şamaxı şəhidləri haqqında kitab

"Elm və təhsil" nəşriyyatında şair-publisist Mətanət Ulu Şirvanlının "Şəhidlik zirvəsi – Şamaxı şəhidləri" adlı yeni kitabı işıq üzü görüb.




Birinci və İkinci Qarabağ müharibələrindən bəhs edən kitabda müəllif Vətən torpaqlarının azadlığı uğrunda canını qurban verən şamaxılı qəhrəman oğulların taleyi və döyüş yolundan söz açılır.

Kitabda "Heç kim unudulmur, heç kim yaddan çıxmır" başlığı altında yazıçı Seyran Səxavət, Azərbaycan Yazıçılar Birliyinin katibləri – şair-publisist Rəşad Məcid, yazıçı-dramaturq Elçin Hüseynbəyli və başqalarının şəhidlərimiz haqqında fikirlərinə də yer verilib.

Redaktoru şair Hikmət Məlikzadə olan kitabda Vətən qəhrəmanlarının ömür yolu gənc nəslə əsl vətənpərvərlik örnəyi kimi təqdim edilir.

## Nizami sözündən incilər

Nizami Gəncəvinin "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır. "Xəmsə"yə daxil olan beş poema-məsnəvidə bütün zamanların ən humanist, ümumbəşəri idealları parlaq bədii əksini tapıb. "Nizami Gəncəvi İli" qüdrətli söz ustadının misilsiz xəzinə olan ədəbi irsinin təbliği, eyni zamanda tədqiq edilməsi və öyrənilməsi üçün yeni zəmindir.

"Nizami sözündən incilər"də dahi şairin möhtəşəm beşliyindən növbəti seçmələri təqdim edirik.

# Səbr etmək yaxşıdır boş əlləşməkdən...

*Təmkinli oturmağı etdiyiçin dağ peşə,*
*Mötəbərdir yerində varlığıyla həmişə.*

**("Sirlər xəzinəsi")**

*Paxıllıq eyləsə dostuna hər kəs,*
*Onun yoldaşlığı torpağa dəyməz.*

**("Xosrov və Şirin")**




*Nə şəhvət, nə yuxu, nə də ki, yemək*
*Həyatın mənası olmasın gərək.*
*Yatmağı, yeməyi bu aləmdə sən,*
*Eşşək, öküzdə də görə bilərsən.*

**("Leyli və Məcnun")**

*İnsan etsə əgər bir işə vərdiş,*
*Çətin olsa belə, görülər bu iş.*

**("Yeddi gözəl")**

*İş düyün düşərsə, bunu bil ki, sən*
*Səbr etmək yaxşıdır boş əlləşməkdən.*

**("İsgəndərnamə" – "İqbalnamə")**

*Çəkinək zülmdən, sitəmi ataq,*
*Ədl ilə mümkündür bundan qurtarmaq.*

**("İsgəndərnamə" – "Şərəfnamə")**

# Sənət ölməzdir prinsipini aşılayan sənətkar

## İsmayıl Əfəndiyev milli kinomuza bacardığı qədər yaradıcılıq töhfələri verib

Bədii təsvir vasitələrinin vəhdəti olan kinoda sənətkarı istedadla yanaşı xarici görünüşü, şəxsiyyət üstünlüyü, xarakterik davranışı seyrçiyə sevdirir. Səhnə yaraşıqlı görünüşünə görə seçilən, alicənab xüsusiyyətinə görə sevilən respublikanın Əməkdar artisti İsmayıl Əfəndiyev (1910–1967) də Azərbaycan peşəkar aktyor nəslinin belə unudulmaz nümayəndələrindəndir. Şux qaməti, xəfif təbəssümü, təmkinli davranışı ilə ekran personajlarının xarakterik cizgilərini bənzərsiz təqdim edən istedadlı aktyorumuzu anadan olmasının 111-ci ildönümündə ehtiramla xatırlayırıq.





Sənət ümumilikdə estetik idealların təcəssümüdür. Peşəkar sənət dahiləri ideal amilini müsbət obrazlarla yanaşı, hətta mənfi personajın həyat mövqeyinin təhlili prinsipində belə təsəvvür etdirməyə müvəffəq olurlar. Ömrünü kinoya xidmətdə keçirən İsmayıl Əfəndiyevin dolğun ekran obrazları da sənət ölməzdir prinsipini aşılayır.

İncəsənətə hələ kiçik yaşlarından həvəsi olan, ailəsinin, qohum-əqrəbasının narazılığına baxmayaraq çətin və məsuliyyətli peşəni seçən İsmayıl Əfəndiyev 1910-cu il avqustun 10-da qədim Şamaxı şəhərində Mahmud kişinin ailəsində dünyaya göz açıb. Kiçik olanda ailəsi Göyçay şəhərinə köçüb. Göyçay həvəskarlar teatrına gedib, buradakı tamaşalarda böyük həvəslə iştirak edib. 1927-ci ildə orta məktəbi bitirdikdən sonra Bakıya gəlib, Pedaqoji Texnikuma daxil olub. Xalq şairi Rəsul Rza ilə tanış olub. Bu tanışlıq sonralar dostluğa, daha sonra isə qohumluğa çevrilib.





### Məhsuldar yaradıcılıq

Pedaqoji təhsil aldığı müddətdə də ruhən teatra bağlı olduğunu, ondan heç vaxt ayrıla bilməyəcəyini duyan gənc tələbə görkəmli teatr və kino xadimi, Xalq artisti İsmayıl Hidayətzadə ilə tanış olur və onun rəhbərlik etdiyi dram dərnəyində çıxış edir. 1929-cu ildə texnikumu bitirdikdən sonra bir müddət pedaqoji fəaliyyət göstərir. 1931-ci ildə Bakı Türk İşçi Teatrına dəvət alır. Bir il sonra teatr Gəncəyə köçəndə kollektivlə birlikdə orada fəaliyyət göstərməyə başlayır. Maraqlı, koloritli obrazlarla tamaşaçıların qəlbinə yol tapan gənc aktyor teatrın repertuarında olan tamaşalarda baş və aparıcı rollarda çıxış edir.

Teatrda məhsuldar yaradıcılığı kino xadimlərinin diqqətindən yayınmır. İlk dəfə görkəmli aktyor, rejissor, Xalq artisti Abbas Mirzə Şərifzadənin kinomuzun səssiz mərhələsinə aid "Məhəbbət oyunu" filmində (1935) oynadığı obrazın (Səttar) həyat mövqeyini, psixologiyasını dəqiq ifadə edən aktyor sevilən simaya çevrilir. 1939-cu ildən etibarən isə kinostudiyada fəaliyyət göstərməyə başlayır, həm aktyor kimi filmlərə çəkilir, həm də rejissor kimi filmlər çəkir.

### Kinoya lazım olmaq

İsmayıl Əfəndiyevin teatrda qazandığı sənət bilgisi koloritli ekran obrazları yaratmasına, məşhurlaşmasına səbəb oldu. Ahəngdar səsə, qüsursuz diksiyaya malik aktyor bir neçə bədii filmdə məşhur kino personajlarını (Həkim Eldostu – "Bir qalanın sirri", Cəlil – "Əsl dost", Gülümsərov – "Ulduz" və s.) ifadəli səsləndirməklə peşəkar ifaçıların oyununa uğur qatdı.

İsmayıl Əfəndiyevin səsli kinoda ilk böyük rolu "Yeni horizont" filmindəki (1940) Adil Kərimov obrazıdır. Görkəmli kinorejissor Ağarza Quliyevin kinorejissor Qriqori Braginski ilə birgə quruluş verdiyi film Bakı neftçilərinə, onların yeni neft yataqları kəşf etmək uğrunda apardıqları mübarizəyə həsr olunub. Gənc alim-geoloq Adil Kərimovla qocaman alim, professor Əhmədov arasında elmlə bağlı yaranan kəskin münaqişə filmin əsas süjet xəttini təşkil edir. Səsli kinonun ilkin mərhələsində ekranda təcəssüm olunan patetik, sxematik təqdimatların fonunda rolun mövqeyi tam açılmasa da, aktyorun kameraya uyğun və lazımlı keyfiyyətləri, sənət taktikası növbəti filmlərə dəvət almasına imkan yaradır.

Filmoqrafiyasına 30-dan çox ekran əsəri daxil olan sənətkar rejissor kimi müxtəlif mövzulu ("Alagöz yaylağında", "Bəsləsən atlas olar tut yarpağından", "Əmanət kassası" və s.) sənədli filmə, "Kölgələr sürünür" dram-macəra janrlı bədii filminə (1958, kinorejissor Şüa Şeyxovla birgə) quruluş verdi, 10-dan artıq filmdə (həkim – "Əmək və qızılgül", Rza İsmayılov – "Bəxtiyar", Şirəli – "İnsan məskən salır", Nadirov – "Qızmar günəş altında", Kamal Qasımov – "Vətən oğlu" və s.) yaddaqalan obrazlar yaratdı. Aktyorun müxtəlif illərdə yaratdığı Rza ("Səbuhi"), Şeyda İmanov ("Qara daşlar"), Qurbanov ("Cazibə qüvvəsi" kinoalmanaxında "Zirvə" novellası) və digər ekran obrazları xarakterik cizgilərinə görə yaddaqalan personajlardır.

Aktyorun yaratdığı Süleyman "Arşın mal alan" (1945), Əmir Həmzə "Fətəli xan" (1947), Həsənqulu bəy "O olmasın, bu olsun" (1956) kimi genişplanlı rolları da xarakterik cizgilərinə, kinonun əhəmiyyətini anlatdığına görə yaddaqalandır, baxımlıdır. Sözügedən filmlərdən də göründüyü kimi, fərqli xarakterlər toplusu yaratmaq, personajın həyat tərzini, düşüncəsini, istəyini inandırıcı çatdırmaq zəngin dünyagörüşünə, böyük daxili mədəniyyətə malik sənətkar üçün heç də çətin deyildi. Bu mənada sənətə sevərək sarılan, Azərbaycan kinosunun addım-addım irəlilədiyi çətin vaxtlarda ömrünü bu sənətin müxtəlif sahələrinə həsr edən İsmayıl Əfəndiyev milli kinomuza bacardığı qədər yaradıcılıq töhfəsini verməyə nail oldu.

### Peşə və vətəndaşlıq borcu

İsmayıl Əfəndiyev məsuliyyətli kinematoqrafçı olaraq peşə və vətəndaşlıq borcunu şərəflə yerinə yetirirdi. O, 1945-ci ildə bir qrup mədəniyyət işçisi ilə Cənubi Azərbaycanda olanda Təbrizdə "Arşın mal alan", "O olmasın, bu olsun", "Eşq və intiqam", "Anamın kitabı" əsərlərini tamaşaya qoyur. Həmçinin 1947-ci ildə ekranlara çıxan "Arazın o tayında" filmi üçün müəyyən çəkilişlər aparır. Çoxşaxəli yaradıcılığa malik sənətkar "Bir ailə" filmində rejissor assistenti, "Almanların Şimali Qafqazda vəhşilikləri" sənədli filmində operator köməkçisi, "Arşın mal alan" (1945), "Bəxtiyar" bədii və "Arazın o tayında" sənədli filmlərində ikinci rejissor kimi də çalışıb, elmi-kütləvi filmlər çəkib.

### Sevgi ilə xatırlanmaq

Həyatın inikası olan kino sənəti insanların arzularını, istəklərini təcəssüm etdirir, onların həyata, bir-birinə olan münasibətini göstərir. Bu mənada kino və onu yaşadanlar unudulmur, daim sevgi ilə xatırlanırlar.

"Azərbaycanfilm"də uzun illər kinooperator işləmiş Fəramiz Məmmədovun İsmayıl Əfəndiyev haqqında fikirləri sənətkar şəxsiyyətini bizə daha yaxın edir: "İsmayıl Əfəndiyev yadımda alicənab bir insan kimi qalıb. "Arşın mal alan" filmində canlandırdığı Süleyman kimi çox səliqəli geyinirdi, üzü həmişə təraşlı olurdu. Kinostudiyada çalışdığı müddətdə işini həmişə səliqə-sahmanla aparırdı. Bir dəfə də olsun, onu kinostudiyanın yeməkxanasında oturan görmədim. Yadımdadı, görkəmli kinorejissor Əlisəttar Atakişiyev ona birlikdə çay içməyi təklif edəndə deyirdi ki, "Əlisəttar müəllim, gəlin, otağımda söhbət edək". Özünü çox sanballı aparırdı. Kiminsə xətrinə dəyməzdi, kimsə də onunla zarafat edə bilməzdi. Yüksək daxili mədəniyyətə malik insan idi. Həyatını zəhməti ilə qazanırdı. Dublyajda səsləndirmə ilə məşğul olur, filmlərdə çalışırdı. Buna görə də böyük hörmət sahibi idi".

**Şəhla ƏMİRLİ**
**kinoşünas**

# Musiqişünas, ssenarist, turizm bələdçisi...

## Mədəniyyət və İncəsənət Universitetində əlavə təhsil imkanı

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti (ADMİU) 2021-2022-ci tədris ilində musiqişünaslıq, turizm bələdçiliyi, turizm işinin təşkili, bədii yaradıcılıq və ekran dramaturgiyası (ssenarist) ixtisasları üzrə ödənişli əsaslarla yenidənhazırlanma təhsili almaq üçün qəbul elan edir.

Universitetdən bildirilib ki, müvafiq ixtisaslar üzrə tədris əyani formada həyata keçiriləcək. Mövcud vəziyyət (pandemiya şəraiti) nəzərə alınaraq tədrisin onlayn təşkil olunması istisna edilmir.

ADMİU-da yenidənhazırlanma təhsili Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli müvafiq qərarı ilə təsdiq edilmiş "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"na əsasən aparılır.

Tədris Azərbaycan və rus dillərində aparılır. Sənədlər sentyabrın 10-dək qəbul olunur. Yenidənhazırlanma təhsili almaq istəyənlər rektorun adına ərizə, ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə), 2021-ci ilin məzunları bakalavr səviyyəsini bitirmə haqqında gerbli möhürlə təsdiq olunmuş arayış və digər zəruri sənədləri təqdim etməlidirlər.

Ətraflı məlumatı ADMİU-nun saytından əldə etmək olar.

## Xatirə təqvimi — 28–31 avqust

### Azərbaycan

**28 avqust 1918** – Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti xalq maarifinin, orta məktəblərin milliləşdirilməsi, ölkənin bütün məktəblərində türk (Azərbaycan) dilinin icbari qaydada tədris olunması barədə qərar qəbul edib.

**28 avqust 1935** – Tanınmış yazıçı, şərqşünas Əlibala Qüdrət oğlu Hacızadə (1935 – 9.10.2009) Biləsuvar rayonunun Ağalıkənd kəndində doğulub. "İtkin gəlin", "Əfsanəsiz illər", "Ayrılığın sonu yoxmuş", "Təyyarə kölgəsi", "Vəfalım mənim" və s. əsərləri geniş oxucu rəğbəti qazanıb.

**28 avqust 1948** – Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsi respublikada ədəbiyyat və incəsənət sahəsində olan qüsurların aradan qaldırılması barədə qərar qəbul edib. Qərarda ədəbiyyatda sosialist realizmindən uzaqlaşma cəhdləri tənqid olunurdu.

**28 avqust 1968** – Aşıq Xındı Məmməd (Məmməd Gülabı oğlu Qəniyev; 1896–1968) vəfat edib.

**28 avqust 1984** – Xalq artisti, tanınmış müğənni Rübabə Xəlil qızı Muradova (22.3.1933 – 1984) vəfat edib. Akademik Opera və Balet Teatrının solisti olub.

**29 avqust 1890** – Şair, qəzəlxan Məhəmmədəli Şəfai (1890-1967) Bakının Maştağa kəndində anadan olub.

**29 avqust 1929** – Tanınmış rəngkar Fərhad İbrahim oğlu Hacıyev (1929 – 17.12.1987) Şamaxıda doğulub. "Bakı ritmləri", "Kəpəz" və b. tabloların müəllifidir. Azərbaycanda bərpa rəssamlığının əsasını qoyub, Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin rəhbəri (1981-1987) olub.

**29 avqust 1965** – Məşhur tarzən, Xalq artisti Qurban Bəxşəli oğlu Pirimov (30.10.1880 – 1965) vəfat edib. 1920-ci ildən Opera və Balet Teatrının solisti olub.

**30 avqust 1946** – Xalq artisti, tanınmış radio diktoru Qarasim Əbdülhəsən oğlu Tağızadə (1946-2018) Beyləqan rayonunun Dünyamalılar kəndində anadan olub. Azərbaycan Radiosunun diktorlar şöbəsinə rəhbərlik edib.

**30 avqust 2000** – Tanınmış şair, publisist Şahmar Əkbər oğlu Əkbərzadə (28.12.1941 – 2000) vəfat edib. "Mədəniyyət" qəzetinin baş redaktoru (1991-2000) olub.

**31 avqust 1927** – Şair, dramaturq, Əməkdar incəsənət xadimi İsgəndər Coşqun (İsgəndər Məmməd oğlu Hümmətov; 1927 – 10.12.1996) Göyçayda anadan olub. "Gəmidə söhbət", "Qığılcımlar", "Nəğmə dolu ürək" və s. kitabların müəllifidir.

**31 avqust 1942** – Şair, nasir, tərcüməçi, maarifçi Rəşid bəy İsmayıl oğlu Əfəndiyev (1863–1942) vəfat edib. Şəkidə doğulub. "Qan ocağı, "Pul dəlisi", "Diş ağrısı" və s. pyeslərin müəllifidir. Dərsliklər yazıb.

**31 avqust 1957** – Əməkdar artist Kübra Məmmədağa qızı Dadaşova (1957 – 12.2.2017) Bakıda anadan olub. Gənc Tamaşaçılar Teatrında çalışıb, filmlərdə ("Yuxu", "Cavid ömrü" və s.) çəkilib.

**31 avqust 1967** – Cənubi Azərbaycan yazıçısı, ictimai-siyasi xadim Səməd Behrəngi (24.6.1939 – 1967) vəfat edib. Azərbaycan nağıllarını fars dilinə tərcümə edərək nəşr etdirib.

**31 avqust 2018** – Şəki şəhərində Xalq şairi, dramaturq, ədəbiyyatşünas, ictimai xadim Bəxtiyar Vahabzadənin Ev-Muzeyinin açılış mərasimi keçirilib.

### Dünya

**28 avqust 1749** – Alman şairi, yazıçı-dramaturq Yohann Volfqanq Höte (Johann Wolfgang von Goethe; 1749 – 22.3.1832) anadan olub. Əsərləri: "Faust" mənzum tragediyası, "Vilhelm Meysterin təhsil illəri", "Gənc Verterin iztirabları" romanları, "İfigeniya", "Torkvato Tasso" dramları və s.

**28 avqust 1867** – İtaliya bəstəkarı Umberto Cordano (Umberto Menotti Maria Giordano; 1867-1948) anadan olub. Operaları: "Andre Şenye", "Fedora", "Sibir", "Madam Sen-Jen" və s.

**28 avqust 1925** – Yəhudi əsilli Rusiya yazıçısı Arkadi Natanoviç Struqaski (1925-1991) anadan olub. Qardaşı Boris Struqaski (1933-2012) ilə birgə yazdıqları fantastik əsərlərlə tanınıb: "Tündqırmızı buludlar ölkəsi", "Günorta, XXII əsr" və s.

**29 avqust 1862** – Belçika yazıçı-dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1911) laureatı Moris Meterlink (Maurice Polydore Marie Bernard Maeterlinck; 1862-1949) anadan olub. Əsərləri: "Göy quş", "Beatris bacı" pyesləri, "Güllərin idrakı", "Arıların həyatı" fəlsəfi pritçaları və s.

**29 avqust 1903** – Məşhur rus aktyoru Andrey Fayt (1903-1976) anadan olub. "Azərbaycanfilm"də lentə alınan "Uzaq sahillərdə" (Mazelli), "Bir qalanın sirri" (Göygöz kosa) filmlərində çəkilib.

**29 avqust 1915** – İsveç aktrisası, üç dəfə "Oskar" laureatı İngrid Berqman (Ingrid Bergman; 1915 – 29.8.1982) anadan olub. Filmləri: "Anastasiya", "Şərq ekspresində qətl", "Qaz işığı" və s.

**29 avqust 1920** – Amerika caz musiqiçisi Çarli Parker (Charlie "Bird" Parker; 1920-1955) anadan olub.

**29 avqust 1958** – Dünya şöhrətli amerikalı müğənni Maykl Cekson (Michael Joseph Jackson; 1958–2009) anadan olub. 13 dəfə "Qremmi" mükafatına layiq görülüb.

**30 avqust 1748** – Fransız rəssamı Jak Lui David (Jacques-Louis David; 1748-1825) anadan olub. Məşhur rəsmləri: "Maratın ölümü", "Horasilərin andı".

**30 avqust 1860** – Rus rəssamı İsaak İliç Levitan (1860-1900) anadan olub. Peyzaj ustası kimi tanınıb. Əsərləri: "Ağcaqayın meşəsi", "Göl" və s.

**31 avqust 1811** – Fransız yazıçısı Teofil Qotye (Theophile Gautier; 1811-1872) anadan olub. Romanları: "Gənc Fransa", "Madmazel Mopen" və s.

**31 avqust 1897** – Amerika aktyoru, iki dəfə "Oskar" laureatı Frederik Març (Frederick Ernest McIntyre Bickel; 1897–1975) anadan olub.

**Hazırladı: Vüqar ORXAN**

# "Avropa nağılları" – kitab və videoformatda




Avropa İttifaqının (Aİ) Azərbaycandakı Nümayəndəliyi "Avropa nağılları" sosial layihəsi çərçivəsində Aİ-nin 27 üzv dövlətinin nağıl və əfsanələrini Azərbaycan dilinə tərcümə edib.

Nümayəndəlikdən verilən məlumata görə, kitab ölkənin müxtəlif uşaq evlərinə, uşaq kitabxanalarına paylanacaq. "Bu kitab Azərbaycandakı uşaqlara Avropanın müxtəlif xalqları haqqında məlumat əldə etməyə, Avropa dəyərlərini kəşf etməyə kömək edəcək. Sülh bir-birini başa düşməkdən, fərqlərə hörmət etməkdən, oxşarlıqlar tapmaqdan və əməkdaşlığı inkişaf etdirməkdən başlayır. Qoy bu kitab dinc gələcəyə doğru nəcib bir yolda kömək olsun", – deyə məlumatda bildirilir.

Çap versiyası ilə yanaşı, Aİ dövlətlərinin səfirləri, səfirliklərin digər əməkdaşları tərəfindən danışılan nağılların videoversiyaları da hazırlanıb ki, onlar peşəkar aktyorlar tərəfindən Azərbaycan dilində dublyaj edilib. Videonağılları nümayəndəliyin https://www.facebook.com/EUDelegationtoAzerbaijan/ sosial şəbəkə səhifəsində izləmək mümkündür.

Kitabın Azərbaycan dilində elektron versiyası Aİ Nümayəndəliyinin internet səhifəsində yerləşdirilib.

№64 (1841)
27 avqust 2021
www.medeniyyet.az

# Türk tarixinin böyük zəfəri



Xəbər verdiyimiz kimi, Anadolunun qapılarını əbədi olaraq türklərə açan tarixi Malazgird Zəfərinin (26 avqust 1071-ci il) 950-ci ildönümü Türkiyədə təntənəli şəkildə qeyd olunur. Yubiley tədbirləri 950 il əvvəl Sultan Alp Arslanın başçılıq etdiyi Səlcuq ordusunun Bizans İmperatoru Romen Diogenin qoşunları üzərində qələbəyə qazandığı yerlərdə – Muş vilayətinin Malazgird və Bitlis vilayətinin Ahlat bölgələrində təşkil edilib.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, digər rəsmilər avqustun 25-də Ahlatda – "1071 Malazgird Meydan Müharibəsi Tarixi Milli Parkı" elan edilən ərazidə təşkil olunan mərasimdə iştirak ediblər.

Burada çıxış edən Prezident Rəcəb Tayyib Ərdoğan Malazgird Zəfərinin qazanılmasının tarixi əhəmiyyətindən, türk xalqının bu şanlı qələbəyə hər zaman yüksək dəyər verməsindən danışıb, xalqı bu şərəfli tarixin ildönümü münasibətilə təbrik edib.

Qeyd edək ki, Ahlat rayonunda bayram tədbirləri keçirilən bölgədə Azərbaycan çadırı da qurulub. Ankaradakı səfirliyimiz və Azərbaycanın Qars şəhərindəki Baş konsulluğunun dəstəyi ilə qurulan Azərbaycan tarix və mədəniyyətini tanıdan guşədə kitablar, mədəni irs nümunələri, musiqi alətləri, milli geyimlər, suvenirlər nümayiş olunur. Çadırda mədəniyyətimizin təqdimatı Naxçıvan Dövlət Filarmoniyasının "Şuşa" muğam qrupunun çıxışları ilə müşayiət olunur.



Avqustun 24-də Ahlat rayonunda təşkil olunan proqramlardan sonra bayraq yürüşü təşkil olunub. 150 metr uzunluğunda Türkiyə bayrağını çiyinlərində daşıyan izdiham rayonun mərkəzi ilə hərəkət edib.

Bitlis valisi Oktay Çağatay, hakim Ədalət və İnkişaf Partiyasının başqan müavini Vedat Dəmiröz, Bitlisdən millət vəkili Cemal Taşar, Ahlat Bələdiyyəsinin başqanı Abdülalim Mümtaz Çoban və digər rəsmilər dövlət bayrağını çiyinlərində daşıyan aksiyaçılarla birlikdə irəlidə yürüblər.

Bayraq yürüşü "Mehtər marşı"nın sədaları altında həyata keçirilib.

Tədbirlər çərçivəsində Ergezen orta məktəbinin şagirdlərindən ibarət "Mehtəran" birliyinin ifasında "Mehtər marşı" da böyük maraqla qarşılanıb.

**Mehparə SULTANOVA**
**ANKARA**

# İstanbulda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun iclası

Avqustun 25-26-da İstanbulda İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İƏT GF) iclası keçirilib.



İclasın açılışında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın gənclərə videomüraciəti təqdim edilib. Hazırda dünya tarixinin ən təlatümlü dövrünü yaşadığımızı vurğulayan Ərdoğan qlobal səviyyədə ciddi narahatlıqlar doğuran təhlükəsizlik problemləri, terror fəaliyyətləri və pandemiya nəticəsində sabitliyin tam təmin olunmadığını deyib. Bildirib ki, bəşəriyyəti təhlükə altında qoyan bu problemlər, təəssüf ki, İslam coğrafiyasında daha dərin izlər qoyur.

Türkiyənin dünyada hökm sürən bu ədalətsizliyə qarşı mübarizə apardığını vurğulayan dövlət başçısı müsəlmanların haqsızlıqlara qarşı daha sərt mövqe nümayiş etdirmələrinin vacibliyini bildirib. Türkiyə Prezidenti bu məsələdə gənclərin üzərinə böyük vəzifə düşdüyünü qeyd edib.

İƏT-ə üzv olan 56 ölkənin nümayəndələrinin iştirak etdikləri tədbirdə "İslam əməkdaşlığında gəncliyin strategiyası" mövzusu başda olmaqla gənclərin inkişafı, iqtisadi imkanlarının genişləndirilməsi, mədəniyyət, incəsənət, idman sahələrindəki fəaliyyətləri və əldə etdikləri nailiyyətlər, eləcə də ətraf mühit və s. məsələlər müzakirə olunub.

İclasda İƏT GF-nin prezidenti Taha Ayhanın hesabat məruzəsi dinlənilib, bir sıra təşkilati məsələlərə baxılıb.

# Mərziyyə Davudova haqqında ssenari Kazan festivalında

Məşhur Azərbaycan aktrisası Mərziyyə Davudova haqqında kinossenari sentyabrın 5-dən 10-dək keçiriləcək 17-ci Kazan Beynəlxalq Müsəlman Kino Festivalının (Kazan International Festival of Muslim Cinema) pitçinq (kino layihələrinin təqdimatı və müdafiəsi) siyahısına daxil edilib. Ssenarinin müəllifi kinorejissor Nadir Maçanovdur.




Nadir Maçanov bildirib ki, "Mərziyyə" dram janrında tammetrajlı bədii film olacaq. Filmin beynəlxalq layihə olaraq istehsalı nəzərdə tutulub, Azərbaycan, Rusiya, Portuqaliya və İtaliya kino mütəxəssisləri birgə çalışacaq. Çəkilişlər Azərbaycanda və Rusiyada aparılacaq.

"Kazan Beynəlxalq Müsəlman Kino Festivalı dünyada tanınır və builki festivalda Azərbaycan aktrisası Mərziyyə Davudovanın adı çəkiləcək", – deyə rejissor qeyd edib.

Festival çərçivəsində pitçinqin qısa siyahısında ("Short list") 14 kinolayihə var. "Mərziyyə" filminin ssenarisindən savayı bütün layihələr Tatarıstan və Rusiyanın digər bölgələrindən təqdim edilib.

SSRİ Xalq artisti Mərziyyə Yusif qızı Davudova (1901–1962) Həştərxanda doğulub. 1920-ci ildə Bakıya gələrək Akademik Dram Teatrında çalışıb. "Bəxtiyar", "Bir məhəllədən iki nəfər" və s. filmlərdə çəkilib. Görkəmli aktyor və rejissor Abbas Mirzə Şərifzadənin həyat yoldaşıdır.

# Heykəltəraş soydaşımız Xarkovun "Fəxri vətəndaşı" adına layiq görülüb

Ukraynanın Xalq rəssamı, tanınmış heykəltəraş, soydaşımız Katib Məmmədov Xarkov şəhərinin "Fəxri vətəndaşı" adına layiq görülüb. Bu barədə Xarkov Şəhər Şurası qərar çıxarıb.



Katib Məmmədov Xarkov şəhərinin mədəniyyət sahəsində inkişafına görə bu ada layiq görülüb. Bununla bağlı keçirilən rəsmi tədbirdə çıxış edən Xarkov Şəhər Şurasının katibi, merin səlahiyyətlərini icra edən İqor Terexov bildirib ki, Katib Məmmədov şəhərimizin fəxridir. Onun heykəlləri Xarkovun vizit kartına çevrilib.

Katib Məmmədov bildirib ki, bu ada layiq görülməsi onun sənətinə, eyni zamanda azərbaycanlılara, Azərbaycan xalqına verilən qiymətdir.

"Azərbaycan və Ukrayna arasında bütün sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də əməkdaşlıq inkişaf etməkdədir. Bu gün bu əməkdaşlığın inkişafına, azacıq da olsa, verdiyim töhfəyə görə özümü xoşbəxt sayıram", – deyə o əlavə edib.

Qeyd edək ki, 1987-ci ildən Xarkovda yaşayan soydaşımız şəhərdə 10-dan artıq heykəl kompozisiyasının müəllifidir.

Xatırladaq ki, digər soydaşımız, Ukraynanın Xalq rəssamı Seyfəddin Qurbanova da bir neçə il öncə Xarkov vilayətinin "Fəxri vətəndaşı" adı verilib.

# Məşhur türkiyəli aktyor Metin Çekmez dünyasını dəyişib



Türkiyənin tanınmış teatr və kino aktyoru Metin Çekmez avqustun 25-də vəfat edib. 76 yaşlı aktyor xərçəng xəstəliyindən müalicə aldığı xəstəxanada dünyasını dəyişib.

1970-ci ildə İstanbul Şəhər Teatrları truppasına daxil olan Metin Çekmez sənət həyatı boyunca oynadığı bədii filmlərdə, televiziya seriallarında da geniş tamaşaçı rəğbəti qazanıb.

Usta aktyorun rol aldığı ekran əsərləri arasında "Min bir gecə" (Kudret Sabancı), "Adını Feriha qoydum" (Rza Yılmaz) kimi populyar televiziya serialları var.

# "Rolling Stones" qrupunun zərbçisi vəfat edib

Dünyaca məşhur ingilis rok qrupu "Rolling Stones"un zərbçisi Çarli Uotts (Charles Robert Watts) 81 yaşında dünyasını dəyişib. İfaçı London xəstəxanalarından birində vəfat edib.



Məlum olub ki, Çarli Uotts bu yaxınlarda cərrahiyyə əməliyyatı keçirdiyi üçün ABŞ-dakı qastrol səfərinə çıxa bilməyib. İfaçının ölüm səbəbinin nə olduğu açıqlanmır.

"The Rolling Stones" qrupu (ingiliscədən tərcümədə "yumalanan daşlar" – məcazi mənada "azad avaralar") 1962-ci ildə vokalçı və gitaraçılar Mik Caqqer (Michael Philip Jagger) və Keyt Riçards (Keith Richards) tərəfindən yaradılıb. Çarli Uotts qrupda zərb alətləri ifaçısı, Ronni Vud (Ronald David Wood) gitaraçı-vokalçı olub. Qrup populyarlığına görə əfsanəvi "Bitlz" (The Beatles) dördlüyü ilə ciddi rəqabətdə olub. Qeyd edək ki, 1980-ci ildə Con Lennonun öldürülməsindən sonra fəaliyyəti dayanan "Bitlz"dən fərqli olaraq, "Rolling Stones" dördlüyü son illərədək çıxışlarını davam etdirirdi.

# Əliağa Kürçaylının şeirləri Belarusun ədəbiyyat portalında

Belarusun populyar "Stihi.bu" ədəbiyyat portalında görkəmli Azərbaycan şairi Əliağa Kürçaylının (1928–1980) rus dilinə tərcümə olunmuş şeirləri dərc olunub. Portalda şairin "Etiraf", "Elə bil dəniz də insandır", "Yoluma işıq çıxdı" şeirlərinə və yaradıcılığı haqqında məlumata yer ayrılıb.



Əliağa Kürçaylının yaradıcılığı Belarusun ədəbiyyat portalında təqdimatı Azərbaycan Dövlət Tərcümə Mərkəzinin dəstəyi ilə reallaşıb. Mərkəzdən bildirilib ki, şeirləri rus dilinə tanınmış tərcüməçi, mərhum şair Vladimir Qafarov tərcümə edib.

Qeyd edək ki, bu ildən fəaliyyətə başlamış portal öz səhifələrində əsasən müasir dünya poeziyası nümunələrini işıqlandırır.

# "Dəhşətli dərəcədə ədalətsiz paylanılır"

Dünya Səhiyyə Təşkilatının (DST) Baş direktoru Tedros Adanom Qebreyesus koronavirus əleyhinə peyvəndlərin ölkələr arasında paylanmasını "dəhşətli dərəcədə ədalətsiz" olaraq xarakterizə edib.




Baş direktor bu barədə Afrika Regional Komitəsinin 71-ci sessiyasında çıxışı zamanı deyib.

"Bir neçə təhlükəsiz və təsirli peyvəndin qısa müddətdə hazırlanması və təsdiqlənməsi dünyaya pandemiyanın nəzarət altına alınacağına real ümid verdi. Deməyə ehtiyac yoxdur, peyvəndlərin paylanması olduqca ədalətsizdir. Hamımız bu ədalətsizlikdən məyusuq", – deyə Qebreyesus bildirib.

Onun sözlərinə görə, indiyədək dünyada koronavirusa qarşı vurulan təxminən 4.8 milyard peyvəndin yalnız 87 milyonu, yəni ümumi miqdarın 2%-dən az hissəsi Afrikanın payına düşür. Dünyanın 140 ölkəsinin əhalisinin ən azı 10%-i peyvəndlənib. Bu siyahıya yalnız 4 Afrika ölkəsi daxildir. Halbuki DST sentyabrın sonuna qədər dünyanın bütün ölkələrində əhalinin ən azı 10%-nin peyvəndlə təmin edilməsini qarşıya məqsəd qoymuşdu.

# "Matrix" seriyasından filmin dördüncü bölümü




"Warner Bros" kinostudiyası "CinemaCon"da "Matrix" seriyasından olan filmin dördüncü hissəsinin adını açıqlayıb.

Məlumatda qeyd olunur ki, filmin yeni bölümü "The Matrix: Resurrections" adlanır. Filmin əvvəlki hissələrində olduğu kimi, bu dəfə də baş rolu (Neo) aktyor Kianu Rivz canlandırır. "Warner Bros" filmin treylerini artıq təqdim edib.

Yeni bölümdə Neo özünü filmin birinci hissəsindəki reallığa bənzəyən monoton bir dünyada tapır. Filmin qəhrəmanı öz sevgilisi Trinitini kafedə görsə də, onu tanımır...

# "Samsung" bütün dünya üzrə televizorları bloklaya biləcək

"Samsung" şirkəti bütün dünya üzrə oğurluq televizorları bloklaya biləcək "TV Block" texnologiyasını təqdim edib.




Yeni funksiya təhlükəsizliyi təmin edəcək və televizorların oğurlanması hallarını azaldacaq. Qurğudan yalnız onun qanuni sahibləri malın alınmasını təsdiqləyən sənədə malik olduqda istifadə edə biləcəklər.

Şirkətdə bloklama mexanizmini izah ediblər: televizor internetə qoşulduqdan sonra isə xüsusi alqoritm qurğunun seriya nömrəsini oğurlanan, yaxud qeyri-leqal satılan məhsulların siyahısı üzrə yoxlayır. Nömrələr üst-üstə düşdükdə proqram televizorun ələ qeyri-qanuni keçdiyini müəyyənləşdirir, sonra isə onun bütün funksiyalarını avtomatik olaraq söndürür.

"TV Block" 2020-ci ilin iyulunda Cənubi Afrika Respublikasında mağazaların qarət edilməsindən sonra uğurla test olunub.

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**

# MƏDƏNİYYƏT

**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 4736
**Sifariş:** 1595

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.